F ə l s ə f i   p ı ç ı l t ı l a r

İskəndər Etibar

# BALACA BÖYÜKLƏR

Bakı-2006

$\frac{Az2}{2006}$

İskəndər Etibar.BALACA BÖYÜKLIR (şerlər)
Bakı, "Yazıçı" nəşriyyatı, 2006, 128 s.

İ $\frac{61002205623}{128-2006}$ qrifli nəşr

© **"Yazıçı"**

## Balaca böyüklər

Dərdim bahar buludu,
Dərdim buğda unudu.
Qoymur məni üşüyəm,
Sanki dəvə yunudu.
Satmaram, dünya verib,
Alan ola.
Sən kimsən
dərdimi çəkəsən?
Dərdim mənə əzizdi,
Get dərdini çək sən.

***

İşıq əllərini yanına salıb,
Günorta namazı qılır al Günəş.
Enib üfüqəcən, səhərə kimi
Tanrı səcdəsində qalır al Günəş.

***

Gözlərim çiçəklənib;
yoluna göz dikdiyin,
Deyilməyən,
Dilimlənib yeyilməyən,
Hələ
Qeybətlənməyən,
Qiymətlənməyən
Sözdən gəlirəm!
O sözdən ki;
Yer üzünə gələcək,
Bəlaları siləcək!
O sözdən ki,
Tanrı belə dözməyir,
O da onu gözləyir!

***

Əlimi qoymuşam sinəmin üstə,
Ürəyim əlimlə pıçıldaşırdı.
Bu, ona, o, buna
Nə dedi, nə demədi, bilmirəm.
Nə o Məcnundu,
Nə bu Leyli,
Hər ikisi
Məndən gileyli.

***

İşıq sayğacı kimi
Ömrüm yazır günlərimi,
illərimi...
Bir gün
hesablayıb yazacaqlar;
enerji sərfimi,
ömrümdəki səhvimi.
Ömrümün
kordioqrammasını çıxardacaqlar,
Deyəcəklər
Ömrüm necə döyünüb,
harda söyülüb,

harda öyünüb?
harda döyülüb!..

***

Gözlərinin şüası
Lazer şüası kimi
Kəsib içimdə kini,
Azadlığa buraxıb
içimdəkini.
Kinimin
kəsilmiş budaq kimi
Tökülür yarpaqları...

## Avtobusda düşüncələr

Bir dilim alovsan,
Şöləlҽnirsən.
Yandırıb-yaxırsan,
Külə dönüncə.
Sən də sönərsən,
Kül qalıb torpaqda
Gülə dönüncə.

**II**

Çətin səni unudam
həsrətindən kövrələn
Bir əlçim buludam;
Yağıram misra-misra.

**III**

Dünyaya deyib sözümü,
Tanıtdım özümü...
Özü bilsin,
Saxlayır, saxlasın,
Silir, silsin izimi.

**IV**

Bu, ondan şirindi,
O, bundan incə.
Gözəllərdən doymadım,
Doymaram ölüncə.

**V**

Doymaq olmur,
Gözəldi yaman;
Hiyləsindən
Aman! Aman!..

**VI**

Mənim ömrüm bir dəniz,

Sən, üzməyi bacarmayan
Bir insan.
Atılma mənə, batarsan.
Mən Kürəm, sən Araz,
Qatılma mənə, itərsən.

**VII**

İskəndər odlu,
İskəndər adlı
Bir nağıl vardı,
Tanrı vermişdi,
Tanrı da aldı.

**VIII**

Lütəm,
Lüm-lütəm, Allah,
mənə isti köynək ver.
Böyük sevgi vermisən,
Bir az da göynək ver.

**IX**

Hər yazan şair deyil,
Hər yazı şer deyil,
Ruh gəlir sözə, şerə
Onda ki, şair deyir.

**X**

Gedirəm hara,
Xaqani taleyi izləyir məni,
Qarabaqara.

***

Dindirmə, səs salma, diksinə bilər
Könlüm həsrətinin vüsalındadır.
Elə şirinləşib, isnişib mənə,
Həsrətin sevgimin vüsalın dadır.

***

Gözlərimdə yaş qurumaz,
Damla-damla qırılmaz,
Axıb gedər çay kimi.
Gözlərimdə yaş qırmızı,
Baxdın, baxdın, bilmədin,
Xəbərdaram zülmündən,
Zalım qızı!...

***

Bu nə həqiqətdi,
Bu nə hikmətdi
durub qarşımda?!..
Mən bu yaşımda
Qaymaq dodaqların

qaymağın yedim,
- Doymadım! - dedim.
Ayırdın! Südəmər uşaqlar kimi
Qaldım çığıra-çığıra.
Bir də o həyat,
Bir də o çağ ola!

## Doğmalıq

Əzizləyir analar
Qundaqda körpəsini,
Elə bil ki, oxşayır
Dənizlər ləpəsini.
Qıymır düşə uzağa
Qaya da qəlpəsini.

***

Səs məndə sözlənir, mənəm hər sözüm,
Mən sözün ocağı, söz mənim közüm!

***

Öyürlər, öyürlər "ölü" Sabiri,
Görmək istəmirlər diri Sabiri!

***Cəlil kişiyə***

Açıldı işıq fəlsəfəsi,
Qurtardım nigaranlıqdan;
Qaranlıq işıqdan görünmür,
İşıq görünür qaranlıqdan.
Onda niyə gündüzü
Gecə görə bilmirik?
Əyri-zülmət, düz-işıq!
Bəs niyə aranı hörə bilmirik?

***

Dünyanı eşqimlə çıraqlayıram,
Çıraqla həqiqət soraqlayıram.

***

Ürəyim sevgidən tumurcuqlayıb,
Ya bu gün, ya sabah çiçəkləyəcək.
Üstümə ac, susuz gələn günlərim
Qoşulub quşlara çiçək yeyəcək.

***

Yanaq pardaxlayıb, dodaq qönçədi
Qönçə açılmağa görüş istəyir.
Yanağın həsrətlə baxıb üzümə,
Məndən bulud-bulud öpüş istəyir.

***

Odun düşdü sinəmə,
Göyə bülənd olaram,
Göz yaşını çiləmə.

***

Çapalama, çırpınma,
Ürəyimə çırpılma,
Mən ki, qayalı sahil,

Sən ki, dəniz deyilsən,
Dalğa-dalğa açıb dil,
Hey durasan qəsdimə,
Hey cumasan üstümə!

***

Qorxmuram canavardan, -
Yeddi cüt canı vardan,
Quyruqlardan qorxuram.
Gözüm elə qorxub ki,
Harda quyruq görürəm,
Tez ayağa qalxıram.

***

Qürurum ucadır dağ vüqarından,
Kasıbam, əynimin köynəyi yoxdu,
Kimsəyə xəyanət etmədim deyə,
İçimin ağrısı, göynəyi yoxdu.
Mən Mənəm!..
Yüz Rəfael, kim ola!..
Qismətdi,
tarixdə kim qala, qala!
Bilirəm
peşiman olacaq bir gün
məndən qaçanlar,
yalana, böhtana
qapı açanlar!..

***

Hər sözün nəfəsi, səsi Allahdı,
Son deyil, Allahım, sonsuzdu sözüm.
Vətən, el - dediyim bir məmləkətdə,
Şeirim sevinmirsə, onsuzdu sözüm!..

***

Sən mənə etdiyin xəyanətləri
Ürək unutmayıb qalır yadında.
Qəza baş verəcək, keçmə! Ürəyim
Qırmızı işıqdı yanır yolunda.

***

Qaranlıq gecənin sonsuzluğunda
Əllərim əlini axtarır sənin.
Əlim yarpaq kimi əsir boşluqda,
Gedim? Hara gedim?
Qurtarıb sərhəddi gülüm, vətənin.

***

Qoy üzümə gül dodağı,
Gül açıla gül yerində.
Ürək oxşar, zövqü oxşar,
Gül açarsa gül yerində.

***

Payızam, dolmuşam, söz ağlayacam,
Nadan ürəkləri sazaqlayacam.

***

Gündüzlər Günəşəm, gecələr Ayam,
Elimin yolunda alışasıyam.
Elə ki, isindi bu elim, obam,
Kül olub vətənə qarışasıyam.

***

Şaxta qovurur qarı,
Külək sovurur qarı,
Elə bil ağ yumaqdı
Qarda yeriyir qarı.

***

Əlin əlimdə qaldı,
Damarlarım qaynadı,
Canda nə qeylü-qaldı?!

Ürək sevinc içində,
Gözüm qaynar qazandı.
Mənə elə gəldi ki,
Ömrüm həyat qazandı!..

***

Sevgi Günəşiyəm şüalanıram,
Eşqimlə bəşəri şüalayıram.

***

Kölgəsini görüb özündən böyük,
Baxdı sağa, sola, dayanıb dimdik,
- Qartalam! Qartalam!
Zirvələrə qalxaram! - dedi kəpənək.
Elə ki, nur düşdü, kölgəsi itdi,
Yazıq kəpənəyin şahlığı bitdi.

***

Bu gecə nə yaman işıqlı gecə...
Ay ilə analı nə bəxtiyardı
Ulduz çiçəklərlə uşaqlı gecə...
Göy elə işıqlı, təbəssümlü ki,
Sanki gülümsəyən uşaqdı gecə.
Ay aman, gecəni işıq bürüyüb
Gecəni dünyadan işıq kürüyüb!..

***

Bir ovuc işıq kimi
Doğuldum səhərə.
Bir sini darı kimi,
Dağıldım səhərə.
Səhəri, bütün günü
İçdim dibinə kimi.
Yaşadım
Günəşin üsyan edib
Coşan səbrinə kimi.

***

Aymı, Yermi böyükdür? Bunu hardan biləsən?
Aydan necə görünür Yer kürəsi görəsən?

***

Dodaqların qönçədi!..
Dinsən, sökülər qönçə.
Möcüzədi, möcüzə;
Susarsan, öz yerinə
Qaçar, çəkilər qönçə.

***

Yer şarının ürəyi
Okeandı, dənizdi.

Gecə-gündüz döyünür,
- Varam! - deyib öyünür,
Sahili döyə-döyə.
Güclüyəm! - deyə-deyə.
Göy çəkir, qalxır göyə,
Yağışlaya dünyanı,
Təzələyib insana
Bağışlaya dünyanı.

***

Günəş səhər-səhər
Gərnəşdi üstümə.
Əlini sinəsinə vurmadı;
Ağrısı, acısı
Gəlmişdi üstümə,
Dünya bürünmüşdü
Ərşə bülənd olan tüstümə.

***

Günəş göydə əriyib
Tökülür üstümə qurğuşun kimi.
Yanıb, yanıb, közlənmişəm,
Tökülür üstümə qardaşın külü.

***

İskəndər Etibar neyləyir pulu,
Qoruyur, oxşayır onu söz nuru.
Hər gün ürəyini yeyib, yaşayır,
Bəşərə düz sözü deyib yaşayır.

***

Ay mənim ürəyim, niyə dənizsən,
Yetən çirkabını axıdır sənə.
İsinir odunda, yatır kölgəndə,
Sonra da ağılar oxudur sənə.

***

Tökülür gözümün giləsi mənim,
Çatmayır başımın gülləsi mənim;
Qəlbimin, ruhumun təmizliyindən
Səbrimin, eşqimin dənizliyindən.

***

Özümdən qisas alıb
Öldürmüşəm özümü,
Qoymamışam kimsələr
Öldürələr sözümü,
Söndürələr közümü.

***

Kişi saqqal ağartdı,
Çağırsınlar - Ağsaqqal!
Ağlını dayaz görüb
Çağırdılar - Ağ çaqqal!

***

İçimi yonuram özüm içimdə,
Kimsəni incitməyim.
Baxma ki, deyirəm özüm özümə;
- Kim səni incitməyib?!

***

Yoxdu ürəyində sevgi, məhəbbət,

Bu, sənə nifrətdi - Tanrı işidi.
Ay - Kişiyəm! - deyən, elə bilmə ki,
Şalvar geyənlərin hamsı kişidi.

***

Ömrüm-günüm, səndən ötrü ölürəm,
Görüşümə geciksən, görəcəksən ölüyəm!..

***

İstəyirəm alışıb-yanım odunda,
Ömrüm boyu beləcə qalım odunda.
Niyə bu daşın qanadı yoxdur,
Uça bilmir!?
Niyə bu quşun inadı yoxdur,
Daş qapı aça bilmir;
Sonra bildim
Daş daş olmalı,
Quş da quş.
Nələr olmaz
Qış yaz olsa, bahar qış!

***

Boy-buxun, yaraşıq səni çaşdırıb,
Kişilik vətənə, xalqa sevgidi.
Sevgisiz adamlar qara lövhədə,
Təbaşir yazanı silən silgidi.

***

Bu dünyaya vurulmağın
Hikmətində nə məna var?
Nə vermişsə dünya bizə,
Verdiyində təmənna var.

***

Bahar çağı kimdən küsüb təbiət,
Səhər-səhər mısmırığı sallanıb.
Oyanmayıb, yuxudadı dağ, meşə,
Ağacdələn təbilini çalmayıb.

***

Acam, acam,
Üzündəki qara xalın acıyam.
Mən hamıya şirinəm,
Görən niyə
Təkcə sənə acıyam?!

***

Asiyəm, ay asiyəm,
Dərd əlində asiyəm.
Quldu Qərbin önündə
Qoca Şərqim, Asiyam.

***

Buludlar ağlayır, bu göz yaşından,
Dağların yanağı şırım-şırımdı.
Sular şırıl-şırıl şırıldadıqca,
Coşan şəlalədə bir aşırımdı.

***

Sən yaşayırsan mənsizlikdə,
Mən yaşayıram sənsizlikdə.

Fikrimiz fəryad edir
Sükut dolu səssizlikdə.

***

Bəxtim məni oyatsa, gələrəm hüzuruna,
Yaltaqlar nə söyləsə, püləsə də nə zurna.

***

Demə: - Həqiqətəm, sevirəm Yeri
Yalandı fırladan Yer kürəsini,
Yalana toxunma, çevirər Yeri.

***

Mənim bayram hədiyyəm gülüm, sən olmalısan,
Məni qəmlər əlindən gülüm, sən almısan.
Kim deyər, - yoluxarsan,
Su içmə qaynamadan!

***

Qablanıb ağzı üstə
Su içdim qaynamadan.
Kim deyər, - yoluxarsan,
Su içmə, qaynamadan!

***

Günəşə boylanan bənövşə kimi,
Mənə boylanırsan, gülüm, Günəşəm?
Deyirəm - bəlkə də mən səndən ötrü
Göydən gəlmişəm?

***

Vermişəm ömrümü sənə hədiyyə,
Əllərim əlində qul qalacaqdır.
Bəs sənin hədiyyən nə olacaqdır?
Bir öpüş! Onu da qıysan, bəs edər,
Könlüm gecə-gündüz səndən bəhs edər.

***

Tonqallar qalanır bayramqabağı,
Yaz yanan ocaüğa, tüstüyə gəlir.
Millət yetimləşir, yurd viran qalır,
Harda ki, nadanlar kürsüyə gəlir.

***

Gecələr səs-səsə verib banlaşan
Xoruzlar dənləyir ağ ulduzları.
Çəkir pərdəsini, qorusun deyə
Göy, qaçıb gizlənən sağ ulduzları.

***

Qollarım sarmaşıqdı,
Sarmaşacaq sənə;
Ürəyindən su içib,
Gözlərindən işıq,
Gül açacaq sarmaşıq.

***

Kədərlisi çoxdu Yerin,
Sevinclisi tapılarmı?
Şar kimidi insan başı,
Boşdusa baş, top olarmı?

***

Bir şeirimi itirmişəm,

Axtarıram mələyə-mələyə.

***

Günah üzə oxunub,
Qəm toxunub,
Hava çatmayır,
Ürəyimiz çatlayır...
Sən arxalı, mən arxasız;
Mən dənizi,
Sən bir arxı doyurarsan.

***

Göylərə nə olub? Yerdə ağaclar
Budaq əllərini döyür dizinə.
Göyün kardioqrammasını
Yazır şimşəklər
Göyün mənə sarı işıq üzünə.

***

Balaca nəvəmsən, balaca Saleh,
Dünyanı çiynimə alıb gedirəm,
Hər işdə qalibəm! Qalib gedirəm.
Sən şair ömrümün gələcəyisən,
Ömrümün-günümün görəcəyisən.

***

Tarixə ehtiram, tarixə hörmət,
Yaxşı ki, dünyanın hər yerində var.
Deyirəm dünyada daim var olsun,
Yaxşı əməllərə imza atanlar.

***

Əlləri əllərimin,
Gözləri gözlərimin
   balasıdı...
Şəkil çəkir
Əllərimin balası...
Günəş içir, nur biçir
Gözlərimin balası...

***

Mənim işıq əlim uzanıb sənə,
Yapış əllərimdən çıx işıqlığa.
Üzül qara qoçdan, ağ qoçam, gülüm,
Yapış əllərimdən çıx işıqlığa!

***

Sən mənə inam ver, sevim mən səni,
Səni sevgim ilə işıqlandırım.
Buludam, torpaqsan, yağım üstünə,
Səni ana edim - uşaqlandırım.

***

Gecə üşüdür məni,
Görəsən Allah eşidir məni?

***

Gecə qurtarmır,
Göy günəşi qaytarmır.
Nə hiss edir, nə duyuram...
Sən demə

səni itirib dünyam.
Səhər çoxdan açılıb,
Gəl,
Ömrüm sapdan asılıb.

***

Mən yaratmaq,
qurmaq istəyirəm,
fikrin, sözün zirvəsində,
durmaq istəyirəm,
Yol aç mənə, İlahi.

***

Hər yetən anlamaz Yerdə mən kiməm,
Obada, ölkədə, eldə mən kiməm.
Bəşər axıb gedən seldi, çağlayır
Bu coşqun axında, seldə mən kiməm?

***

Ruhu xəstə bəşərə
loğman olmaq istəyirəm.
- Mən! Mən! - deyən buşlardan
Qisas almaq istəyirəm.
Yol aç mənə, İlahi.

***

Günəşin Yeri çəkən
Bir ipinə mən bağlı,
Birinə sən.
Dayan! Nadan,
sən çəkən ip yaman boşdu,
Bunu gördüm halım coşdu.
Niyə belə edirsən?
Elə bil mal-qarasan;
Hindistan küçələrində
Səllimi gəzən inəksən.
Nə özünə, nə millətə gərəksən.

***

Ölü deyiləm,
Ölüsüyəm dərdimin.
Dəli deyiləm,
Dəlisiyəm dərdimin.
Dərdim solmur,
Sevincim
Bir gün olur, beş gün olmur.
Göründümü, tez cumun,
Elçi düşün, elçiləyin,
Məndən dərd umun.

***

Sözüm qurtarmayıb,
Kağızım qurtarıb.
Məni əlacsız görüb
İlham sözün qaytarıb.

***

Kişilik eşşəkliklə deyil,
Adamlıqladır.
Necə ki, badamın dadı
badamlıqladır.

***

Dodaqların püstə kimi açılıb,
Bir istəyim dodağına qısılıb,
İlan vuran körpə kimi çığırır,
- Öpüş! - deyib məni sənə çağırır!..

***

Mən dağam, sən təpə,
Mən bütövəm, sən qəlpə.
Mən Günəşəm, sən Aysan,
Məndən işıq alırsan.
Nə vaxt ki, mənimləsən;
O vaxt ulduzlanırsan,
Bilinir ki, sən varsan.

***

Qız gülün qədrini elə bilir ki,
Dərmədi, əyilib ətrini çəkdi.
Qüruru göylərə sığmayan başı,
Məhəbbət eşqinə torpağa çökdü.

***

Dərd atıb qaçdım göyə,
Enimmi, enməyimmi;
Nadanı dahisindən
milyon kərə çox, Yerə?

***

Qəlbimin göy üzü bulud-buluddu,
Yenə şimşəkləyib söz yağacaqdır,
Kağız ətəyini açıb yağışa,
Gülüm, misra-misra söz yığacaqdır.

***

Məndən ötrü çətindi,
Yaxşı şeirimi seçmək
Bundan daha rahatdır
Yarıb Xəzəri keçmək.

***

İyul Günəşidi əlimin içi,
Üstünə tuşlansa əridəcəkdir.
Sevgidən yoğrulub əlimin odu,
Daşlara can verib yeridəcəkdir.

***

Əllərin əlimdə yatdı bu gecə,
Nə şirin yuxuya batdı bu gecə?!
Bilmirəm hardayam, gülüm, əllərin
Gecəni gündüzə qatdı bu gecə.

***

Əllərim əlində işıq kimidi,
Əllərin əlimdə uşaq kimidi.
Ürəyim o qədər sevinir, indi,
Başını itirən aşiq kimidi.

***

Gecə saat dördə qalıb,
Yenə yazıq İskəndəri
Sevinc atıb, dərdə qalıb.

***

Allaha, Günəşə uzanan əlim,
Uzanır, həmişə uzanır sənə.
Sən mənim əbədi ehtiyacımsan,
Hər yolum, cığırım ucalır sənə.

***

Əllərin əlimlə işıqlanacaq,
Sənin əlində də işıq yanacaq,
Qanundu, udacaq işıq işığı,
Dünya gələcəyə uşaqlanacaq.

***

Həyat dolu dənizəm.
Sevindim, lovğalandım,
Misra-misra dalğalandım,
Çırpındı sahilimə
Dalğa sözüm, dalğa andım.

***

Elə həyat verir yağış misralar;
Gərək deyilsənsə elə, vətənə,
Kitabdan, dəftərdən, yığış, misralar!

***

Heç kimin
heç kimdən xəbəri yoxdu,
Sözü ələməyə xəlbiri yoxdu,
Hərə öz evində dahilik edir,
Kimi Yerə sığmır, göy ilə gedir.
Kimi Xaqanini qoyub yarıda,
Kimi ya peyğəmbər, ya da dahidi,
Qalıb arada.

***

Dünyanın söz adlı hökmdarı var,
Sözə xidmət edir şah da, nökər də.

***

Daşam, bülbül olaram,
Mənə əlini çəksən.

***

Səhərəyaxın əsən külək
Səhərin yolunu silir, süpürür.
Gecənin nə pisliyi qalıbsa,
Külək gecənin üzünə tüpürür.
Ulduz-ulduz gəlinlər
Utanıb Günəşdən, çəkilir göydən.
Ay da qalardı göydə, çəkinir göydən.

***

Günəş bizə qonaqdı,
Axşam çıxıb gedəcək.
Ürəyinin odunu
Bizə sıxıb gedəcək.

***

Təpə dağa gülürdü;
- Gəlməzdi heç gümana,
Qorxusundan bürünüb
Bu dağ qara dumana.

***

Güldürə-güldürə, hey gülə-gülə,

Ömrümün çoxunu gözəllər yedi,
Baxıb, saymazyana gəzənlər yedi.

***

Nə yaşadım, nə görüm?!
Hey ağladım, hey güldüm.
Bir az yatdım,
fikrə batdım,
baş qatdım.
yaşadımmı, ey həyat?

***

Fikrini şövq ilə fərman elə,
Dərdimə dərd ilə dərman elə.

***

Dağıdıb könlümü,
Xaraba etdin.
Bəs hara getdin?
Xaraba könlümdən
Nə istəyirsən?
Cənnət idim,
Cəhənnəm etdin.
Özün etdiyini
Nə pisləyirsən?!

***

Mən qorxmuram cəhənnəmdən;
Gözəllərin gözündə
Cəhənnəmə gedib-gəlmək
Mənim səadətimdi,
Gündəlik adətimdi.

***

Qan ağlayan tütəyin
Dili özündən deyil;
Ağladır özgə kimi,
Tökülür torpağa
Tütəyin külü.İnsanlar!..
Dünya təmiz olmayacaq,
Nə qədər ki, insan var!..

***

İnsanlar!..
Dünya təmiz olmayacaq,
Nə qədər ki, insan var!..

***

Mən dərd satan bazaram,
Müştərim nə kasaddı?
Dərd qalıb ürəyimdə,
Göz yaşımdan pas atdı.

***

Mənim dərdim tükənməz,
Dərd əlindən bezaram;
Dərdi edib mürəkkəb,
Dərdi dərdlə yazaram.

***

Aya gülür işıldaböcək,

Deyir: - Nə gülürsən?
Məndən işıq aldığını
Bilirsən?

***

İnsaf elə, gözəlim,
Bir içim ver, içim.
Qoşabulaqdan.
Elə içim,
Unutmayım,
Ömrüm boyu gəlib keçim
Qoşabulaqdan.

***

Əlini
Əlimin üstünə qoysan,
Baharı gəlmiş ağaclar kimi
İçim tumurcuqlayar.

***

Dağlar çibanıdır bəlkə torpağın,
Bəlkə ağrı verir torpağa dağlar?
Dağlar müdrüküdü, ağsaqqalıdı,
Bəlkə ağıl verir torpağa dağlar?!

***

Gözəllər, həyatda sonsuz sərgisiz,
Yaşaya bilmərik sizsiz - sevgisiz.

***

Çökdüm əsrin dibinə ki,
Tapa bildiyimi elimə verim.

***

Bu payız dağlara çağırır məni,
Açıb rənglərini sərgiləyib Yer.
- Hər barın öz vaxtı, dadı var - deyib,
Bağların barını cərgələyib Yer.

***

Fikrimin aclığından,
Sözümün azlığından,
Xəsisliyimdən,
Sənsizliyimdən,
Nadanlığımdan,
Utanır qələm.

**Xanım:**
- Yoxdu nə zəhmin, nə də ki, hökmün,
Kişi deyilsən?!

**Şair:**
- Sözün məni incitdi,
Qaraldı qanım.
Mən şair ürəyi gəzdirirəm,
Hökmdar ürəyi yox, xanım!..

***

Böyük insan, yaşadın,
Sığınıb sözə, qanuna.
Haysız-haraysız işini görüb
Çəkildin qəbir qınına.

***

Şumlanıram torpaq kimi,
Tumlanıram torpaq kimi,
Sevgi cücərdim.

***

Soba yanır:
- İsti sənin,
Tüstü mənim - deyir.
Nə böyük ürəyi var, Allah!

***

Eşqim mənə məzardı,
Sanma canım bezardı.
Bu məzar cənnətimdi,
Tanrıdan minnətimdi.
Bəzəyirəm məzarı,
Bu, mənim sənətimdi.

***

Biz qoyunu bəsləyirik,
Yemək üçün.
Torpaq bizi bəsləyir,
Yemək üçün.

***

Təpiklədim torpağı,
Torpaq çığırdı,
İnsanlığa çağırdı;
- Təpikləmə,
Sümüklərim ağrıyır - dedi.
Mənim sümüklərimdi,
Getdiyin yola körpü.
Uçurma körpünü!..
Yolda qalarsan.

***

Gözlərin sıxdı məni,
Sıxıldı
Müsbətim, mənfim,
Nəyim vardı, çıxıldı.
Bir dəri, bir sümüyəm,
Yel aparar.
Baxma ki,
burunlu, qulaqlı,
ağlı başında insanam,
Gülüm, Məcnun ilindən,
İnsanlıqdan qaçanam.

***

İskəndərəm, dərdlərinə təşnəyəm,
Baxışından görürəm,
Mən gözündə heç nəyəm.

***

Bir topa işığam;
Görən deyər - uşağam.
Yox, yox, uşaq deyiləm,
Uşaq ürəkliyəm.
Götür məni,

Gətir məni ürəyinə,
Ürəyiişıqlı ol!..

***

Günəş işıq yağır üstümə,
İşığı suya çevirirəm.
Su damır alnımdan
Torpağa, damla-damla.
Torpaq su içir,
Torpaqda rüşeym oyanır,
Torpaq hamilədir sünbülə,
Sabahkı gün gülə!..

***

Günəşi xəstəhal görəcək dünya,
Üstümə it kimi hürəcək dünya,
Sən gəlməsən.

***

Vətənin dərdi dolub canıma,
Qovruluram.
Məhəbbət oduna yanan sinəmə,
Məhəbbət çiləyir, ovunuram.
Vətən atır sevgi oxunu,
Vuruluram.
Vururam qızlarına, özünə.
Durub-yıxılan uşaq kimi,
Yıxılıram közünə.

***

Eşq nə qədərsə,
O qədər yanıb tüstülənir hər kəs,
Tüstüsündən bilirəm,
Kim nə çəkir!..

***

Kişmiş kimi gözəlin
Çoxdu - can-can! deyəni,
Tapılmayır yeyəni.

***

Mən şairəm, dəniz kimi tez-tez coşub çağlaram,
Öz odumdan şölə çəkib şamlar kimi ağlaram.

***

Dərdin qara buludlar kimi,
Yeriyir üstümə axın-axın;
Vüsalın nə uzaq,
Həsrətin nə yaxın?!
Ayrılmışıq -
Qayadan qopan daş kimi.
Ya sən o daş,
Ya mən o daş.
Bəlkə at belində
Əyən yükü tarazlarıq.
Harda, hara atarlar
O daş səni, o daş məni?!
O qaya da vətəndi,

Qalar vətənliyində.
Yığılsa yüz min alim,
Baş sındırar, baş açmaz
Ömrün bu tənliyindən.

***

Gözlərinin işıq sapını
Kirpiyinə sapla,
Tik sökülən bağrımı - demişdim.
Demədim ki,
- Kirpiyini ürəyimə sapla!
Nə qədər şair öldürmüsən
Bu hesabla?!...

***

Atma məni, itirərsən,
Axtararsan, axtararam.
Bilmərəm ki, işıq gələn,
İthürənsən.

***

Bu şeirin sətirləri yonulmayıb,
Tilişkələdir,
Əl vursam, əlim,
Dilə alsam, dilim qanayacaq.
Sonra da qəhqəhə çəkib
Məni ağlım qınayacaq.
Belə şeir yazıb,
- Şairəm! - deyən dəlimi.

***

Dünya yaralı quşdu,
Uçub sinəmə qonmuşdu,
Uçurtdum onu,
Qaçırtdım onu,
Məni alçaltdığı qədər
Alçaltdım onu,
Məni ucaltdığı qədər
Ucaltdım onu!...

Mən gəzən torpaq idim,
Susub doydurdum onu.
Bir qəbiri boş idi
Ölüb doldurdum onu.

***

Vüsal ver ki,
vüsalından çiçəkləyim,
Barın qovsun,
Sinən üstə ləçəkləyim.
İnkar etsin barın məni,
Mən yoxluğu gerçəkləyim!

***

Mən elə bilirdim şeir yazıram,
Sən demə, ömrümə qəbir qazıram.

***

Qəlbimin sözü,
Tökül bu dünyanın gözlərinə

Dərman kimi,
Açılsın gözü!..
Tökül qəzəbə su kimi.
Elə tökül, gül açsın
Sel ağzında su kini.

***

İti alıb qoynuna
Tumarlayır, oxşayırsan.
Mən yazığı
Qəzəb dolu, nifrət dolu,
Kinlə baxışlayırsan;
Zilə çıxır heyrətim,
Mən insanam, ay gözəl
İtincə yox hörmətim?!..

***

Ürəyimin dərdi dağdan böyükdü,
Əl boyda ürəyə dağ necə sığdı?
Dərdim bulud kimi bölük-bölükdü,
Bulud kədərini göy mənə sağdı!
Heyrətdi, dəhşətdi, bu ət ürəyim,
Bu qədər qəm yeyib, hələ də sağdı?

***

Yaxşısan, şeirim,
Yaxşısan.
Tarixin sərtliyində
Ömrümün naxışısan.
Səni verdim vətən küləklərinə,
Alıb kürəklərinə,
Eldən-elə aparsın.
Səni söz-söz, səs-səs,
Səpirəm insan ürəklərinə,
Köklənəsən.

***

İnsanam; - işığam, məhəbbətəm mən,
Bəşəri sevgidə Məhəmmədəm mən!
Hamıya paylaram əldə nəyim var,
Təpədən-dırnağa mərhəmətəm mən!
Səsim muğam kimi ürək oxşayır,
Taram, kamançayam - məlahətəm mən.
Gözüm gözəlliyə heyrət oxuyur,
Heyrətin atası - məharətəm mən.
Qəm yemə İskəndər, nadan nə deyir,
Tanrı kamil yonan büt-qeyrətəm mən.

***

Şikəst şeirim - şikəst balam,
Çıxma evimdən,
Yaşama ölə-ölə,
Öl, yaşaya-yaşaya!

***

Baharın səsini eşidən
budaqlar kimi,
Fikrim muçurlayır.
Qulağını bəri tut,
Ürəyim söz pıçıldayır.

Ürəyimin pıçıltısıdı
şerimin hər sətiri;
Fikrin fikrimi
Tutuncadı çətini.
Sonra görəcəksən
Bir işıq topasıdı,
Məhəbbət butasıdı
Şeirim.

***

Səni Günəş alsın əllərimizdən,
Ayırsın aparsın illərimizdən.

***

Külüng vurdum qaya sözə,
Fərhad ola bilmədim.
Ağrılardan çığırdım,
Fəryad ola bilmədim.
Kitab-kitab şeir yazdım,
Şair ola bilmədim.

***

Zəncirlənib dil ağzımda,
Yüzün desən, beşın deməz.
Belimdədi həşəratlar,
Yüz il keçə, - düşüm - deməz.

***

Şeir yoğururam söz-söz.
Mayası ilham, suyu heyrət.
Bu iskirdən yaranıb
Ölməzliyi sözün, şerin.
Yoxsa, söz meydanında
Kim tapar kimin yerin?

Söz yoğurur hər gün məni.
Yoğururam mən də sözü,
yoxsa, edər sürgün məni.

***

Dan ulduzu
Dan yerini çərtdi,
İşıq vurdu gecəni,
Tab etmədi dizləri,
Bərəldi,
Bərələ qaldı gözləri...
Hamı yuxuda idi,
Oyaq şair bağladı
ölən gecənin gözlərini...

***

Dərdim Günəşdən odlu,
Dəniz kimi durudu.
Dərdi tutdum dənizə,
Dəniz qurudu.
Girdim sevinc bostanına,
Gördüm urudu.

***

Səndən uzaq olsun hər kədər, hər şər,

Ömrünü bəzəsin fərəhli illər.

***

Gecə saat beşdi,
Yatmamışam;
Bir az qaraciyər,
Bir az ürək,
Bir az böyrək inciyib.
Kələfi dolaşıb beynin.
Neynim?!
Səbəb axtarmayın ölümə,
Qələm ki, keçdi əlimə,
Qurtardı!..

***

Gözlərin piyaləsin,
Doldur ver, işıq içək.
Yanaqların çiçəkdi,
Gəl, öpüm ləçək-ləçək.

***

Dərdimi yazıram
Dərd kitabına,
Açıram, dərd püskürür,
Örtürəm, kilidlənir.
Çəkib bazara qoysam,
Kim alar,
Dərd kitabını?!

***

Dərdim məndən ağırdı,
Nə atıb gedə,
Nə də qaldıra bilirəm,
Xəcalətdən ölürəm.

***

Bu meşəni, bu ağacı
Yerin ürəyindən çəkib Günəş.
Bənövşəni gətirincə,
Torpağı yalayıb, diz çöküb Günəş.

***

Çıxdım çəmənin seyrinə,
Birdən-birə könlüm təzələndi.
Ərk etdi mənə köhnə tanışlar,
Quşlar nədi, daşlar məzələndi.

***

Sən bir uzaq nəğmə,
Mən bir yaxın nəğmə.
Allahım bağışlasın,
Açılan yaxan - nəğmə.

***

Sözün daş düzümü, -
Atamın hördüyü divar!
Elə tutub əl-ələ,
Söz kimi, daşlar,
Əbədi durar.

***

Günəşin oğluyam,
Günəşdi ağlım:

İnsana, torpağa, ota, çiçəyə
Sirayət edir.
Dağı əritməyə, dəniz içməyə
Cəsarət edir.

***

Odunu içdiyin,
Günəşə and verirəm.
Nurundan keçdiyin,
Ulduza and verirəm.
Loxması dağ aşıran,
Çörəyə and verirəm.
- Uğrumda can ver! - deyən
Vətənə and verirəm.
- Vətən! - deyən, - El! - deyən,
Dillərə and verirəm,
Tanrı, bağışla məni.

***

Saat üçə işləyir, üçə,
Hara gedir bu gecə,
Qanımı içə-içə?

***

Yar gəlmədi, gəlmədiÞ;
Xəyala dalma, dalma,
Həsrətin qəm odunda
Ərimə damla-damla.

***

Həsrətin buludu dönüb yağmura,
İsladır məni.
Günəşmi həsrətin? Buxarlandırıb,
Uca zirvələrə ucaldır məni.

***

Gəmidi, gah çıxır, gah batır şeirim,
Həyatın səsinə səs qatır şeirim.
Çiçəkdir, arılar bal çəkir ondan.
Torpağam, şirəmlə boy atır şeirim.

***

Var idi, var həvəsim yara, tükənməz,
Baxma ki, vurduğu yara, tükənməz.

***

Vətəni satıb vəzifəyə gələnin,
Qəbrində də sümükləri sızlayır.
Yerin altı isti olur - deyirlər,
İstidə də onun ruhu buzlayır.

***

Bu dünyanın hər işində, əməlində
Min ağrı var, min bir olsa, şirindi.

***

Əsrini çiynində daşıyan insan!
Ölümü özü üçün,
Ömrünü el üçün yaşayan insan -
Xaqani!

***

Baxana zövq verir, tamahlandırır,
Qara kişmişidi üzündə xalın.

Salxıma çatmazdı üzünün gücü,
Odur ki, dənbədən düzüldü xalın.

***

Fikrimdən
Fikrinə söz atıb dedim:
- Sevirəm səni!
Fikrinin qapısı bağlıdı,
Sözüm sənə çatmadı.
Fikrinin qapısını döyən sözümün
Bağrı çatladı.

***

Günəş
Gözlərimi işıq ilə doldurub,
Doydurub,
Yaşadır məni.
Mən də işığı şeirə çevirib
Misra-misra boşalıram
Sənə, ona, ona...
Nuş olsun!

***

Allahın köləsiyəm,
Məhəmmədin kölgəsiyəm.
İslamda təmizliyi, düz yolu,
Düzü qorumalıyam!..
Necə də çətindi:
Əsrin
Xədicəsini tapmalıyam
Və
Əsrin nəbzini tutmalıyam.

***

Ay gülüm, - Yar! Yar! - deyib
Sən mənə yetəcəksən!
Könlüm ötən nəğməni
Səndəmi ötəcəksən?

***

Mən sözün yolunda
Kolluğa,
daşlığa düşüb azmışam.
Bəzən yaxşı yazımı,
- Pisdi! - deyib pozmuşam.

***

Dost! - dediyim neçə dost,
Məni inkar elədi.
Qorunsam da nə qədər,
Vurmağa imkan elədi.

***

Sən, məni sənə düşmən bilirsən,
Mən sənə düşmən deyiləm,
Bilmirsən.

***

Bakıda
Küçələr təsbeh sapı,
Maşınlar təsbeh daşıdı:
- Gecə-gündüz bəxtimizi daşıdı.

***

Düşdüm nadan əllərə,
Cavanlığım yıxıldı:
Mən çatınca, yox oldu.

***

Bəxtəvərsən, ürəyim,
Bəyənib yarım səni.
Belə şirindillidən
Necə ayırım səni?!

***

Çaşmısan, azmısan, yol verərəm ki,
Əldə oynadasan məni, pul kimi.
Mənə xoruzlanma, toyuq deyiləm!
Gedirəm acından ölməyə! Ancaq
Yaşaya bilmərəm sənə qul kimi.

***

Şimşəklədi gülüşün:
İldırımötürən deyiləm,
Ötürüm.
Özümə çəkdim odunu,
Yandırdı.
Su da, od da olduğuna,
İnandırdı.

***

Şimşəklədim başım üstə,
Şimşəyindən qurudum:
Özümü qurban verib,
Sevgimizi qorudum.

***

Sevgililər sevgi üstə yeriyir,
İzlərində çiçək bitir, gül bitir,
Kədər itir, qəm itir.
Sevməyənlər kədər üstə əriyir.

***

Silkələndi Şamaxı,
Xaqani zirvələndi;
Seyid Əzim, Nəsimi,
Sabir, Hadi, bəndəniz
O zirvədəndi.

***

Əlimi salıb üfüqün dibinəcən,
Qulaqlayıb Günəşi çəkdim Göyə.
Özümə qənim kəsildim özüm,
Günəş məni buxarladı, çökdüm Göyə.

***

Başım şişib -
Bir az böyük kimidi,
Çiynimdə yük kimidi:
Qıçım zorla gəzdirir.
Vaxt qazana bilmirəm,
İtirirəm.
Az qalıb, lap az qalıb,
Tələsən, tələsməsin,
“Ömür” adlı kitabı bitirirəm.

***

Hərdən elə sıyrılır
Söz ağız lüləsindən,
Yıxılıram.
Tanrı qıymaz, qıysa kim,
Yox olaram
Söz gülləsindən.

***

Səni sevmək üçün doğulmuşam mən,
Səni sevmirəmsə, doğulmamışam.
Zirvəsiz qalıbsa sənin vüqarın,
Deməli mən hələ dağ olmamışam.

***

Elə bildim səni ey gül, dərdimə dərman yazıb Allah,
Səhv imiş, sən demə, qətlimə fərman yazıb Allah!

***

Gözləri qəm dolu bu gözəl qızın,
Kimdi oğurlayan baharın, yazın?!

***

Hansı namərd yaman yola salıb səni?
Hansı dərddi, ilan kimi çalıb səni?

***

Toxum kimi əkilmişəm dillərdə,
Cücərəcəm uzun-uzun illərdə.

***

Mən atamın "günahıyam",
Anam güldü, - gül ahıyam.

***

Kimlərsə vəzifəsini, kimlərsə pulunu qorumaq üçün acizlik, qorxaqlıq edir.
Nəticədə millət, islam - bütün Şərq acizləşir.

***

Bu yayın istisində,
Kələk gəlir, külək gəlmir.
Haraylayır məhəbbət,
İstək gəlir, ürək gəlmir.

Gəldi külək, kələk də,
Haram oldu yediyim.
Belə zarafat olmaz,
Bu, deyildi dediyim.

***

Bu dəli könlümü pərişan etmə,
Sən ki, arı deyilsən,
Bağrımı şan-şan etmə.

***

Sakit baxan Ay kimi,
Sakit axan çay kimi
Axarı ləngərlidi.
Baxan elə bilir ki,
Hamı kimi yaşayır.
Yox! Yox! İskəndər
Dağdan ağır
Fikir yükü daşıyır.

***

Bu Yer, - göyün dibidi;
Atılıb qalmışam
Göyün dibində.
Zaman axır, vaxt axır;
Seldə axan daş kimi, -
Dəyişirəm, dönürəm,
Nəsillərin dəbində!..
Qumlar da daşlar idi;
Yaşamışam bu ömrü,
Qala bilsəm qum qədər
Nəsillərin qəlbində.

***

Əllərin əlimin aşiqi kimi,
Gözlərin ömrümün işığı kimi.
- Yoxdu İskəndərdən! - deyəcək hər kəs,
Bu eldə, obada dindirsən kimi.

***

Eskalatorda gözəl enir, bir baxın,
Elə bil mələkdi, enir göylərdən.
Nədəndir, seçilmir bu gün göy Yerdən?!
Bilmirəm, göydəyəm, yoxsa ki, Yerdə,
Mən göyə qalxıram, qız enir Yerə!..

***

Bu qoyundur, mələmir, söz deyir ancaq,
Kimsə qurban deyilib? Bilməyir əsla.
Durub öz növbəsini gözləyir ancaq.
Ürəyi, fikri dayazdır, nə düşünsün?
Nə deyirlər, dayanıb göz döyür ancaq.

***

Məhəbbətim ağırdı,
Lal dili var, - fağırdı.
Mən gəlməzdim həyata,
Məhəbbətim çağırdı.

***

Dərd məni oda salıb,
Üfürür, alov tutam.
Alovum şölələnir
    tutam-tutam.
Alovum istəyir,
Günəşin əlindən tutam.
Yer əsirgəyir, -
Yaşamağın ətri gəlir.

***

Bal dodaq gülüş istər,
Ağ yanaq öpüş istər.
Gözümə həsrət qalan,
Gözlərin görüş istər.

***

Ağ üzün, ağ yanağın,
Könlümə saldı yanğın,
Vüsalınla sönər o,

Gəncliyinə dönər o.

***

Dişlərin elə parlayır;
Açılıb-yumulan dodaqların,
Elə bil işıq doğrayır.

***

Könlüm sıxılır, sən kimi bimarı görəndə,
Mənə tənə eləyib saymaz ötən biarı görəndə.

***

Şairəm,
Torpaqdan doğulmuşam.
İşığam,
Günəşdən dağılmışam.
İşığam, torpağam, vətən,
Səndən yoğrulmuşam!

***

Zülfün kimi könlüm
Gözəlim, tel-tel olub.
Tellər cəm olub
Məni məndən aparan
Coşğun sel olub.

***

Bilməm gedirəm hara, bilməm gəlirəm hardan,
Əğyar aldı kam yardan, mən alınca kam yardan.

***

Dağılsa Buş oğlu Buşun da taxtı,
Açılar bəşərin bağlanan baxtı!

***

Şairəm;
Yanınızda kölgəmdi,
Özüm başqa yerdəyəm.

***

Sən hardan biləsən kiməm, nəçiyəm,
Sən adam deyilsən, adi canlısan.
Sevincdə payın yox, qəmdə payın yox,
Nə qəmli, kədərli, həyacanlısan!

***

Arısı qırılıb,
Gülünə milçəklər qonur
Bakının.

***

Qəlbimi, könlümü sənə vermişəm,
Necə vəfasızsan! Demə qəlbimi,
Dumana vermişəm, çənə vermişəm!
Necə korafəhm, nadan olmuşam;
Sənli dalğalara sinə vermişəm!

***

Bu gecə şığıyıb əsirdi külək,
Kövrək duyğuları kəsirdi külək.
Kiməsə ac ölüm gəzirdi külək,
Tapdı, tapmadı?!

***

Gəl gülüm, gəl, görüşək,
Araz kimi, Kür kimi

Qucaqlaşaq, qarışaq.

***

Dalğa-dalğa qəmlər yarıb,
Qəmlər çəkən bir gəmiyəm,
Səfərlərdən mərd gəlirəm.
Bu dünyaya bir gəlmişəm
Bir də, bir də
Gələsiyəm! Əminəm!

***

Məhəbbət könlümü elə oxşayıb;
Mənə əzab verən, məni incidən
Elimin kütünə yazığım gəlir.
Nadana, alçağa qıyaram, ancaq
Küçədəù itlərə yazığım gəlir.
Yerdə yaltaqların - Tanrı! - dediyi
Yalançı bütlərə yazığım gəlir.

***

Mən səni sevdim ki,
Məni görəsən.
Səni sevmədim ki,
Mənə güləsən.

***

Mən gözəllik vurğunuyam,
Elə bilmə, qocalmışam.
Yox, yox,
Gözəlliyin yorğunuyam.

***

Gecə qaranlığında,
Sıxdım özümü sənə,
Nar sıxan kimi;
Dincəldi ruhum,
can çıxan bədən kimi.

***

Gülüşün könlümə fərəh gətirir,
Gül ay gözəl, baxım, bu, mənə bəsdi.
Elə bil Şamaxı dağlarındayam,
Mənə həyat verən o gül nəfəsdi.

***

O qədər naz ilə gedirsən, gözəl,
Yol xoşallanır.
Səni alqışlayır güllər, çiçəklər,
Qonur ləçəyinə arı, ballanır.
Çiçək ümidiylə uçan kəpənək,
Yolda görür səni, çaşır, aldanır.

***

Səni oxşayıram, səni sevirəm,
Sənsiz, özümdən də, gülüm, bezirəm.

***

Ruhum yorğun, ömrüm xəstə,
Oturmuşam bir daş üstə;
Gələn vaxtı gözləyirəm,
Külək əsir, - közərirəm.
Yavaş-yavaş tutuşuram;

Alov qalxır od canımdan,
Ərşə bülənd oluram.

***

Gəldi qulağıma Tanrı səsi;
İnsan,
Gecəni verdim ki, yatasan.
Gündüzü vermədim ki,
Ara qatasan?!

***

Sus, ay bülbül,
Oxuma, Alim,
Yar danışır.

***

Xaqani, Nizami, Nəsimi, Füzuli,Seyid Əzim və Sabirdən sonra biz ədəbiyyat tarını, sazını çalmırıq, dınqıldadırıq.

***

Nə şirindir gül dodağın,
Dil, - çağlayan söz bulağın?!

***

Gecəylə gündüzün qovuşduğu gözlərin;
Dan yeri söküləndi.
Gözlərin gözlərimin nurunu
Əks etdikcə, sozaldım.
Dağ idim,
Gözlərin - eh, bir çınqı nədir ki,
Deyə-deyə, daşıdı məni,
Qurtardım.

***

Sıyrılıb çıxdım gecədən,
Sancıldım səhərə
Qılınc kimi!
Götürən gərəkdi,
- Vətən! - deyib
Düşmən üstə gedənə,
Ötürən gərəkdi!..

***

Nəhəng dəyirmandı,
Təknəsinə nə töksən,
Üyüdür Bakı.
Dahilər, peyğəmbərlər,
Canavar böyüdür Bakı.

***

Çıxdım dəniz kənarına,
Gəzim, dincəlim.
Çəksin kobudluğumu
Qızlar, gəlinlər,
İncəlim.

***

Ay məni görməyənlər,
Silin gözünüzü,
Görünəcəm.
Çəkin qəlbinizi
    hisdən, paxırdan,

Bilinəcəm.

***

Dərd ağacıyam;
Dərd budaqlayıram,
Qəm yarpaqlayıram.
Yarpaq-yarpaq,
Budaq-budaq çürüyüb
Dünyanı torpaqlayıram.

Allahın insanlara,
hələ gəzən, danışan
Torpaq payıyam.

***

Vallah, min il yaşarıq,
Ömrü adi başlasaq,
Adi yaşasaq.

***

Ağlımın çırağı sönmüş,
Gecədi dünyam...
Böyük məhəbbətin
Böyük kölgəsiyəm,
Demək, böyük qaranlığam,
Təpədən-dırnağacan nigaranlığam.

***

Yeriyə-yeriyə,
Zirvələrin qarı kimi
Əriyə-əriyə,
Selə dönüb
Fırladıram dünyanı;
Çirkaba çevrilməsin,
Axmayan sular kimi.
Mən olmasam,
Yer dayanar, yanar,
Yeri, göyü kor edər
torpağın külü.

Yerlə, göylə yaşıdam,
Yerdi məni yaşadan,
Onu da mən yaşadım!

***

Gülüm, mənə qıyma sən,
Məni sənsiz qoyma sən.

***

Bu necə veriliş idi;
Axtalandı şeirlər,
Saxtalandı şeirlər.
Başı kəsilmiş sözün,
Meydana qanı axdı,
Gözümdə laxtalandı.
Cismim elə qurudu,
Elə bil taxtadandı.

***

Küyə basıb gurlayanlar,
Yolu, izi hisləyənlər,

Özündən ağıllını,
Azdırıb pisləyənlər,
Yıxılıb yox oldular,
İllərin dərəsində.
Çıxarda bilmədilər;
Çağırdılar ananı,
Bibini, cicini,
Meşədəki ayını -
Bığı burma dayını!..

***

Ömrümdən, günümdən
Nə qalıb daha?!
Ömrümü verirəm günə havayı,
Günləri alıram ömürdən baha!..

***

Gözümə gözünün işığı düşüb,
Görə bilmirəm.
Çığırır gözlərin,
Çağırır ürəyin,
Gələ bilmirəm.

***

Qurd deyilsən, ulama,
Ölümə quyruq bulama.
Çarə yoxdu
Nə ölümə, nə oluma!
İt olsan da
Qurdboğan ol,
Yaltaq olma.

***

Nə qədər ki, gözəlliyi duyursan,
Nə qədər ki, gözəllikdən doymursan,
Yaşamağa haqqın var.

***

Gözüm görmür;
Yaman sıxdı gecə.
Bir ovuc gecə tutdum,
İşıq yandı;
Sivişib
Əlimdən çıxdı gecə.

***

Rüşvət elə qudurub,
Bir gün ayağa durub
Dedi: - İnsanlar, mənə
Baxmayın elə-belə.
Bəs edər çırtmam elə.
Atomlu, hidrogenli,
Qüdrətli SSRİ
Yox oldu çırtmam ilə.

***

- Sən kimsən?
- Sənin dərdini çəkən.
- Mən öz dərdimi çəkə bilirəm.
- Yox, sən qarnının, mən, sənin
dərdini çəkirəm.

***

İlhamım
Bir çağlayan bulaqdı,
Bu bulaqdan su içməyən, -
Məhəbbətdən,
Sevgidən uzaqdı.
Günəşə həsrət qalan,
Ay ilə üşüyən
Buzlaqdı.
Həyat eşqi cücərməyən
Duzlaqdı,
Söz qanmayan ulaqdı.

***

Xəstəyəm, gəl, gəl, gözəlim,
Xəstə cana dərmanım ol.
Mən getmişəm bu dünyadan,
Gəlmək üçün fərmanım ol.

***

Səni
Günəşin əlində gördüm;
Günəş səni oxşayırdı.
Ay Günəşin balası,
Sən Günəşə,
Günəş sənə oxşayırdı.
Günəş səni böyüdürdü;
Göy Günəşi gizlədəndə,
Yer Günəşsiz qalmasın.

***

Güclü bilmə Günəşi,
Günəş qorxur dumandan.
Güclü bilmə dumanı,
Duman qorxur küləkdən.
Güclü bilmə küləyi,
Külək qorxur dağlardan.
Güclü bilmə dağları,
Dağlar qorxur siçandan.

***

Gözü yaşlı şeirim,
Başı daşlı şeirim,
Niyə doğuldun?
Sənin, mənim vaxtım deyil,
Gəl, qayıdaq geri.
Allah hələ
Nizamlamayıb Yeri.
Gedək, sonra gələrik.
Açılmayan,
Qönçə qalan bəxtimizi
Gülən görərik.

***

Mənəm, -
İlhamından qanad geyən,
Uçan, uçan,
Zirvələrə yol açan.
Bir zirvə ki,
Enə bilməz!
Mənə gülər,

Kimsəyə gülməz.

***

Sən pulunla,
Mən idrakımla,
Döyüşək!
Razı olmaram:
Məndən ağır qızıla,
Silahları dəyişək.
Bilirəm,
İdrakımla qalib gələcəm
Və güləcəm.
İndidən əlimi sıx, baş əy!
Bir də ki,
Sən doğulanda ölmüsən.
Mən, ölülərlə döyüşmürəm, bəy!

***

Yorğunam, gülüm,
Yaman yorğunam.
Elə bil ki, sellərin
Ulu göyə
Ağız kimi açdığı
Yarğanam.

Sükut dolub ağzıma,
Verməyə nəfəsim yox,
Yeməyə həvəsim yox.
Yorğunam, gülüm,
Yaman yorğunam.
Elə bil
Sükut üstə yorğanam!..

***

Sevgidir ömrümün qolu-qanadı,
Sevgisiz heç yana uça bilmirəm.
Bəlalar əlindən qaça bilmirəm.

***

Nə vaxtsa,
Ulduzlar istəyib Yerə çöksün...
İndi istəyir,
İşığını sallayıb məni çəksin.

***

Mənim ürəyimə dağ çəkən insan,
Sənin ürəyini, Allahım, dağlar.

***

Bu gün namərd görüb;
Dağlara od düşüb,
Tüstüsü dumandı,
Başından çıxır.

***

Gözlərin gözümün sevgisindədi,
Ürəyim gözümün sərgisindədi.

***

Qaşların nazilə-nazilə
Saplanıb,
Nizələnib
Ürəyimə saplanıb.

***

Qızılgüldü dodaqların;
Susursan, qönçələnir.
Danışırsan, açılır.
Danışırsan, ürəyim
Dodaqlarından asılır.

***

Bu gecənin
Gecələmək eşqi var.
Bu gecənin
Güc eləmək eşqi var.
Bu gecənin
qəlbi qara olsa da
hər işini
Düz eləmək eşqi var!..

***

Baxma ki,
özünü heç nədə tapa bilmir o;
Elə tutub ömürdən,
qopa bilmir o.

***

Səhərin üzümə açılan üzü,
Səni də, məni də əzizləyəcək.
Səni görsün deyə, darıxan Günəş
Dünyanı gecədən təmizləyəcək.

***

Sənsən - insan kişmişi,
Sənsən -
Fikrin çiyi, bişmişi.
Səni görən, unudar
Yanındakı
Bir səbət kişmişi.

***

Demirəm: - Sevgilimsən.
Deyirəm - sevdiyimsən!
Keçə bilsən
İmtahanın, sınağın
Qıl körpüsündən,
Uca səslə deyəcəm: - Sevgilimsən!

***

Qulağımı səs oxşayır,
Gözümü gözəllik,
Ürəyimi məhəbbət.
Bunlardan yoğrulmuşam
Hamıdan xəlvət.

***

Nazik,
Tük kimi zərif, nazik
Telefon telindən
Sel kimi səs axır qulağa.
Yayılır duyğuya, hissə.
Burda oturub, qiymət verirəm
Dünyanın o başındakı
Yaxşıya, pisə.

***

Qaymaqlanan dodaqların
Qaymağından doymaq olmur.
Gözlərin nur çayı,
Mən dənizəm; -
hey axırsan
Dolmaq olmur.

***

Mən Allahın qüdrətiyəm,
Əyilmərəm, sınmaram.
Həyat ilə qoşayam,
Əbədiyəm, solmaram.
Əsrlərdən əsrlərə uçaram,
Qanad salmaram.

***

Cild-cild kitablar,
Kişi, şairlik deyil.
Sözlər çıxıb kitabdan
- Xəcalətdən öldük! - deyir.

***

Rüşvət;
Cəmiyyətin güvəsi,
Səadətin bağrında
Atom nüvəsi!
Bu günün -
Gələcəyi ümidsiz
Nəvəsi.

***

Gözün göz sındıran
Muncuq kimidi;
Gözlərimi sındırır.
İşıq
İşığa düşməndi - deyirlər.
Gözlərin evimi yıxdı -
Gülüm,
Gözlərin olan yerdə,
Gözlərim yoxdu.

***

Dərdim üşüdür göyü, Yeri,
Göz yaşımla yazdım bu şeiri.
Sıxma sətirlərimi,
Göz yaşım sel olar.
Yeri, göyü ağzına
Duzlu sel alar.

***

Ahımdı buludlar;
Bakını bürüyüb,
Göz gözü görmür.
Şükür, ilahi, şükür,
Bu gün ahım görünüb.

***

Keçinin qoyuna gülməsi kimi,
Gülür eyiblilər eyibsizlərə.
Halıyam bu dərddən, ulu dahilər,
Nadanlar çox günah deyib sizlərə.

***

Quyruğa şeir oxudum,
Quyruq haqda.
Alqışladı, əl çaldı,
Onun gözlərində
Özündən başqa
hamı alçaldı.

***

Gözəl,
Allahın verdiyi
Rəngdi yanağın.
Unudaram dərdimi,
Bir gün olsam qonağın.

***

Sənsizəm, ey gül,
Qıyma ki, sənsiz də ölüm.
Uzaqda, çox uzaqdasan,
Sənə yetmir əlim.

***

Dağlar qoltuğunda
Qar gizlədib çəmən üçün.
Çəmən də gül cücərdir,
Gözəlliyi sevən üçün.

***

Yollar uzaq,
Yollar yaxın...
Baxın, baxın,
İnsan gedir axın-axın.
Körpə - gələcək gəlir.
Ayağa qalxın!..

***

Gözüm səndə qalıb gör neçə ildi,
Gözsüzəm, gözümü qaytar, ay gözəl.
Sənsiz üzük canım iynədən keçər,
Nə olar, məni də apar, ay gözəl.

***

Səni sevmək asan, haqlamaq çətin,
haqlaya bilsəm də, saxlamaq çətin.
Gözəlsən, bal kimi istəyənin çox.
Zənd etmə, görənlər heyrətsiz ola.
Qorxuram, qorxuram sonda,
Qeyrət çəkənlərin qeyrətsiz ola!..

***

Yaxşı ana  olsaydın,
Qadınlığı tutardın
Qələbə bayrağıtək!
İçirməzdin eşqini
Alkaşa, düşgünlərə
Sərin pivə, araq kimi.
Dərələrdə yatmazdın
Məğlub olmuş bayraq kimi.

***

Bulud, hərdən kövrəlib
Göyü təmizləyirsən.
Dünya, dağlar döşündü,

Göyü əmizdirirsən!

***

Bu şeir yonulmayıb,
Tilişkəlidir;
Əl vursam əlim,
Dilə alsam dilim qanayacaq,
Sonra da qəhqəhə çəkib
Ağlım məni qınayacaq.
Belə şeir yazıb,
- Şairəm! - deyən dəlimi?

***

Buxarısı əyri,
Ocağı ocaq olsa,
Tüstüsü  düz çıxar evin.
Havasına yad nəfəsi qarışsa,
Divarları adam sıxar evin.

***

Daşlar verib əl-ələ,
Qoruyurlar evimi
Qarlı qışdan, küləkdən!
Evimizin qapısı
Sənlik, sənlikdi, gülüm,
Qoru, qoru evimi
Hər hiylədən, kələkdən.

***

Qürurum ucadır dağ vüqarından,
Kasıbam, əynimin köynəyi yoxdur.
Kimsəyə xəyanət etmədim deyə,
İçimin ağrısı, göynəyi yoxdur.

***

Fikrimdə o qədər qaranlıqsan,
Ümidim yox, nurlanasan.
Sən sısqasan, çox sısqasan,
İnanmıram gurlanasan.

***

Yenə səhər-səhər tara bax, tara,
Tarzanın əlində tufan eyləyir,
Sinəmdə qövr edir közlənən yara,
Gör mənə neyləyir, ona neyləyir?

***

Yadı başa çəkən, doğmaya gülən,
Nadanlar olmasa, mənəm birinci;
Belə nadanların nadanlığından,
Olmuşuq vətəndə özgə gülüncü.

***

Ürəyim ağlayır, gözüm gülsə də
Sənə nifrətimin sonu görünmür.
Məni sızıldadan bu dərdlərimin
Biri görünsə də, onu görünmür.

***

Qanmazlar qansaydı qanmazlığını,
Bəlkə də gülməkdən keçinərdilər.
Vəzifə verməli işim olsaydı,
Qul kimi, mənə də kiçilərdilər.

***

Günəş bu dünyanı bir an unutsa,
Dünyanı kim qurub-tikər görəsən?
Dünyanı məhəbbət alovu tutsa,
Gəlsə Səttar, Rəfael, Toğrul,
Dünyanı nə rəngdə çəkər görəsən?

***

Ocaq mən olmuşam, qızınan kimdi?
İtirən mən oldum, qazanan kimdi?
Naz çəkən mən oldum, nazlanan kimdi?

***

Sənin dodağında bayatı, nəğmə,
Mənim dodağımda həsrət, ağı var.
Sənin ürəyində vətən sevinci,
Mənim ürəyimdə vətən dağı var.

***

Sənin ürəyinin dərdi, kədəri,
Mənim ürəyimin sevinci azdı.
Çoxdu sənin kimi qarınqulular,
Yerdə mənim kimi bir inci azdı.

***

Sən ov, mən ovçu,
Mən ovçu, sən ov;
Sən qaç, mən qovum,
Mən qaçım, sən qov.

***

Mən də məhəbbətin divanəsiyəm,
Bir zərrə işığın pərvanəsiyəm,
Mən ki, mən deyiləm, eşqi kül olan
Fərhadın, Şirinin ah-naləsiyəm!

***

Gözəlsən;
Könlümdə yuva qurmusan,
Tanrıdan sonra.
Əzəl yaradandı,
yaranan sonra,
Tanıdan sonra!..

***

Doğrusu, çaş-başdı başı millətin,
Ağlımı çatmayır, yaşı millətin?
Bəsdi, çatılmalı qaşı millətin!
Yetən deyir - dahi mənəm! Nədir bu?
- Pələng mənəm, ahu mənəm! Nədir bu?

***

Hər yetən qəzetə meyl salmayın,
Olmur hər qəzetdə “Tək səbir” sözü.
Təpərə gətirir susan vicdanı,
Ağrılar çəksə də nə qədər özü.

***

Bəli, şeir əbədi
İşıq saçan çıraqdı;
Hər şeirimiz bu gündən
Gələcəyə soraqdı.

***

Allah bildiyini edər hər kəsə,
Hər kəsin hər kəslə işi olmasın.
Hər kəsi bir işıq yaradıb Allah,
Kimsənin işığın kimsə almasın!

***

Susub qoyunlaşar, kişi, cırlaşar,
Hər gün xəlbirlənib, ələnən millət!
Qələbə arzular, qələbə görməz,
Sizlərə, bizlərə bölünən millət!

***

Millətə, vətənə arxa çevirib,
Nə qədər pul yığdın, elədi azlıq;
Mənim bir misrama bərabər olmaz,
Yığdığın sərvətin çəkisi, yazıq!

***

Şair doğulanlar sözdən utanır,
Şair doğulmayan - şairəm! - deyir.
Dahi xəbərsizdi dahiliyindən,
Arpa-saman yeyən - dahiyəm! - deyir.

***

Bir nəğmə oxudum, nəğmələr tacı,
Bir nəğmə oxudum, oldu el acı!

***

Böyük arzuların yolçusuyam mən,
Paxıllıq etmərəm heç vaxt, heç kimə.
Vəzifə naminə, çörək naminə,
Yaxınlıq etmərəm heç vaxt heç kimə.

***

İnsana eşq ilə yoğrulub mayam,
Neynim, düşmənçilik edə bilmirəm.
Quru məntiq ilə ağıl hökm edir,
Ürək getməyənə gedə bilmirəm.

***

Hökm edən gədalar çox gəlib-gedib,
Eşqim, vüqarımla mən Mənəm yenə.
Körpə təbəssümü sındırar məni,
Bacarmaz hökm edə hökmdar mənə.

***

Yaxşı, yaman desələr də üzümə,
Söyləsələr: - bəlalarda gəl üzmə,
Sevən könlüm, bu sevdadan əl üzmə,
Dənizlərin dalğasına sinə gər,
Dəniz qorxar, çəkinməsən sən əgər!

***

O qədər naz ilə yeriyir, qorxur,
Ayağı altında yer çiliklənər.
Bahar nəfəslidir, - bahardı bu qız,
Daşa ayaq qoysa, daş çiçəklənər.

***

Üzündə, üz kölgəsi var, kimindi?
Onu görər məndən qeyri, kim indi?

***

Qoşalülə tüfəng kimi gözlərin

Açılacaq ürəyimə, qorxuram.
Elə qorxuzmusan, səni görəndə
Uşaq kimi ayaq üstə qalxıram.

***

Məni həlim görüb ümidsiz olma,
Mənim ürəyimdə dəli bir eşq var?
Oynadar əllərim yerindən dağı,
Mənim ürəyimdə dəli bir eşq var!

***

Əl açıb kimsədən pay uman insan,
İnsan olduğunu unutmusanmı?
Allahın verdiyi əlləri, başı,
Ağlı hisə verib qurutmusanmı?

***

Sakit bir mənzərə, dərin bir sükut,
Darıxır ürəyim, sanki solacam.
Sükutun içində toxum kimiyəm,
İndicə cücərib haray salacam.

***

Şair doğulmayana
Azardı, dərddi şeir.
Kim ki, şair doğulub
Ona sadiq, mərddi şeir.

***

Köçəri quşdur ilham,
Baharlanır, qışlanır.
İlham tərslik edəndə,
Ürək sözlə xışlanır.
İlham aşıb-daşanda,
Bu dünya naxışlanır!..

***

Bu qaranlıq gecədə
İnsan oğlu üşüyür...
Bu qaranlıq gecədə
Hey maşınlar şütüyür;
Göydən yerə kim baxır,
Deyir: Yerdə elə bil,
Gecə ulduzlar axır!..

***

Beşindən üçü bəlli,
Yerişdən, içi bəlli,
Min qoyunun içində
Bir dənə keçi bəlli!..

***

Mənim dilənçi xalqım, dilən, dilən, hey dilən,
Xəta çıxar dilindən, nə danış, nə də dillən!
Gəlsə, gəlir hər xəta insana öz dilindən.

***

Üstümə günəşin şüası düşür;
Əvvəli çox uzaq, ulu babamın,
Mənim də bəxtimə sonrası düşür!

***

Tanrı məhəbbətlə gülsə vətənə
Millətim qul olmaz yerdə yetənə.

***

Dünya baş-ayaqdır, mənmi baş-ayaq?
O qədər alçalıb, olub baş ayaq,
Bu dərdi sabaha necə daşıyaq?!

***

O, insandı dərd sümük;
Dərdini yeyə bilmir,
Qeyrət kəsib yolunu,
Dərdini deyə bilmir.

***

Sən ana, Təbrizim yurda atadır,
Hər qaşın, hər gözün mətləb anladır,
Hər oğlun, hər qızın səni tanıdır,
Hər eldən, obadan gözəl Şamaxı,
Dünyada ən qədim - əzəl Şamaxı!

***

Səndən mənə qalan körpə xətrinə,
Bu ömrü, bu günü yaşayam gərək,
Dünyanı yük kimi daşıyam gərək.

***

Qələmdən, kağızdan ayrı düşəndə,
Ağlayan körpədi söz ürəyimdə;
Sözü oxşayıram, əzizləyirəm,
Deyirəm: - ağlama, döz, ürəyimdə.

***

İlham anlarında şanı kimiyəm;
Sözlər ürəyimdən süzülür, axır.
O qədər şirindir, qəhərləndirir,
Paxılın cismini yandırıb-yaxır.

***

Yuyunub, daranıb, yağışdan sonra
Günəş çöhrəsini naxışlayırdı,
Ona gözəlliyi, eşqi, hörməti,
Tanrı səxavətlə bağışlayırdı.

***

Gözəlliyə kor olan,
Düşün, daşın;
Zülmət çöküb içinə,
hanı başdaşın?

***

Yüklü buludlar kimi
Ağlım ürəklə
Baş-başa gəldi;
Əvvəl
Fikir şimşəklədi,
Sonra şeir yağdı
Misra-misra!..

***

Sözün varsa qəlbində,
Ürəyin səsləyəcək;
Yer kürəsinin
Şimalında, qərbində!

***

Ürəyim həbsdədir;

Xaqani kimi.
Ürəyim "Həbsiyyə" yazacaq
Xaqani kimi?

***

Ürəyim çırpınır;
Uçsa tufan qopacaq!
Tufan məni qapacaq,
Xaqanisiz, Nəsimisiz
Qalan dünya
Mənsiz də qalacaq!..

***

Sənin
Təkcə gözün görür:
Mənim ağlım,
həm də gözüm!
Gözün tutumu
metrlədir,
Ağıl görür sonsuzluğu.
Tanıtdım səni!
Tanıdın məni?

***

Qartal!
Səni qanadların uçurdur,
Məni xəyal.
Hünərin var,
Xəyalımla qal!

***

Ömrümdən
Açılan yol, cığır,
Sənə qalır, vətən.
Hara istəsən, çağır!..

***

Ürəyimin səsini
Qulaqlarım eşitmir...
Qanımla
Əllərimə axan səsi
Əllərim yazır!
Ürəyin səsini
ürək eşidir,
ağıl yozur!

***

Nağıldan sonra
Dörd alma düşəcəkdi,
Üçü düşdü,
Biri qaldı havada...
Qaçdı onun dalıycan
Adəm də, Həvva da!

***

Elə bil dənizə
kimsə daş atdı...
Üç, dörd, beş, altı;
Daşın əsirliyindən
Xilas oldu daş altı.

***

Ürək ağılı günahlandırır,
Ağıl ürəyi...
Mənə görə
Hər ikisinin günahı var;
Ürəyimin səsində
gül ahı var,
Ağlımın etirafında
bomba səsi!
Bu iki səsdən yoğrulur
ömür nəğməsi.

***

Sıxdım sözün suyunu,
İslandı yazı masam.
Su hopdu, hopdu,
Paslandı yazı masam;
Söz isə billur oldu,
Axıb ürəyə doldu!

***

Söz çiçəyi, söz gülü
Açılır "Tək səbir"də.
Sözün nuru, ətiri,
Saçılır "Tək səbir"də.
Fikrin şəhdi-şəkəri
Duyulur "Tək səbir"də.
Nadanların qulağı
Burulur "Tək səbir"də.

***

Eldə məni yaşadan
Arifin baxışıdı.
Nadanı qandırınca
Canım çıxsa yaxşıdı.

***

Sən məni aldadıb oyuncaq etmə,
Mənim oyunlardan başım çıxmayır;
Yerdə oyunbazı oyun-oyuncaq,
Məni məhəbbətlə ürək yaşadır.

***

Güclü kimi tanındıq
İkimiz də aləmdə;
Sənin gücün puldadı,
Mənim gücüm qələmdə.

***

Bulud, yorub özünü,
Gəl, tutma ay üzünü,
Külək əsir.
Doğru, gözlə özünü,
Açıqlama sözünü,
Külək əsir.

Cücü deyil gərəksiz,
Ayaqlama, ürəksiz,

Ürək əsir!

***

Yaxşı çoxdu,
Başı yoxdu.
Yaşı azdı,
Başı sazdı!..

***

Dünya, gözəllərin o qədərdi ki,
Araya-araya çaşqın olmuşam.
İlhamım zirvəmin qarıdı, qızlar,
Əridib hər fəsil, coşqun olmuşam.

***

İncimə, belədi dünya
Hamını torpaqla belədi dünya!

***

Buludun yaş sıxmağı var,
Şimşək olub çaxmağı var,
Ruhun cana qayıtmağı,
Ruhun candan çıxmağı var.

***

Mən neyləyim, yetənə
Dahi! - deyib öyən var,
Ağa qara deyənlər
Eli aldanan görüb
hey başına döyən var!

***

Etmiş qatığı qara, gödənlər,
Açmış vətənə yara, gödənlər,
Salmış bu eli dara, gödənlər,
Lənət, sənə lənət, belə dövran,
Lənət, yenə lənət, belə dövran!

***

Ulduz-ulduz çiçəklədi göy üzü,
Söküldü dan yeri səhərə yaxın.
Göyün ulduz-ulduz külü töküldü,
Gün çıxdı, od tutdu göydə ulduzlar;
Yandı, gözlərimə külü töküldü.

***

Dağlarımız qar saxlasın,
Ocağımız qor saxlasın,
Yurda dönmək eşqimi,
Dost qorusun, yar saxlasın.

***

Quzu dedim qurd tayına,
Yox, olmasın qurd tay, ona,
Kəmfürsətəm, çağıracam
Bu dünyanı qurd “toyuna”.

***

Alıbsa da bağı məndən,
Can qurtarmaz yağı məndən,
Kim piltəsə bu qeyrətə,
Çəkinməsin, yağı məndən.

***

Demirəm, - demirlər,
Deyirlər, amma demirlər.
Məni heyrətdə qoyub
Düzə əyri dedilər.

***

Enirəm fikrimin dərinliyinə, -
Günəşsiz könlümün sərinliyinə;
qızıl külçələri sözləşib orda.
Çıxır görüşümə söz qardaşlarım
Sanki bir-biriylə sözləşib orda.

***

Fikrin dərinliyi dərin dənizdi
Mirvari söz yatır söz qabığında.
Eşidən olmadı, görən olmadı,
Olsam da həmişə göz qabağında.

***

Doğulmuşam dünyanın söz beşiyində,
Dayanım dünyanın söz keşiyində.

***

Dedilər: - Filankəsin
Əli, ürəyi əyridi.
Bu əyrilik,
Ürəyimdə yara kimidi.
Bu əyrilik;
qızılgülü solduran,
dahilərə qəsd edən,
dəvə kinidi.

***

Bu, qaydadır;
nadanlar "Mersedes"də,
dahilər piyadadır.
İki cür piyada vlar;
ayaqdan piyadalar,
başdan piyadalar...
Ayaqdan piyadalar ayaqda,
Başda oturub başdan piyadalar.

***

Qapısı bağlı dünya,
Sinəsi dağlı dünya,
Dəlilər yeyib səni,
Neylirsən ağlı, dünya?!

***

Bir axmaq
bir axmaqlıq eləsin,
Mini baxıb hırıldar.
Bir ağıllı
min dahilik eləsin,
Biri saymaz,
mini baxıb mırıldar.

***

Hər şeir,
o andakı mənəm;

Nə dünənki,
nə də sonrakı mən yox!
Bəzən şeirlərim
Mənə oxşamır çox!

***

Yalqızlıq içindəyəm,
Yalquzaq içindəyəm,
Yolum yoxdu çıxmağa.
Alışa bilmir bu qəm;
Qov deyiləm çaxmağa.

***

Eşqim ürəyimə işıq salacaq,
Xəyanət gizlənə bilməyəcəkdir.
Billur saray kimi nurlu ürəyim,
Səni nur içində bəsləyəcəkdir.

***

Yaxşılıq etməyə qorxuram daha,
Məni yaxşılığım girov götürür.
Nadan elə bilir ovlayıb məni,
Evə məni boyda bir ov gətirib.

***

Səni boğur xəyanətlərin,
Gülə bilməyəcəksən.
Ölmək istəsən də xəcalətindən,
Ölə bilməyəcəksən.

***

Sənə baxdım,
Gözüm düşdü işığa;
Sənə baxa bilmirəm,
Olmuşam başıaşağa.

***

Gözəlim, gözündə doğulmuşam mən,
Gözünə nur kimi dağılmışam mən.
Sənə təbiəti, gözəllikləri,
Göstərən mənəm.
Hər şey öz rəngində görünsün deyə,
Göz sərən mənəm.

***

Sənin gözlərində yatıram gecə;
Görüm, sən yatırsan gecələr necə,
Gözlərim gözündə gəlirmi vecə?
Qorxum var əzizim, qorxum odur ki,
Kimsə pisləyə,
Düşəm gözündən.

***

Dünyanın qarası ağından çoxdu,
Sevinci seyrəkdi, kədəri sıxdı.

***

Şeirlərim; -
Süzülən söz balımdı,
O andakı halımdı.

***

Zərif, billur gözəlsən;

Toxunsam, sınacaqsan.
- Niyə sındırdın? - deyib,
Fəryadla soracaqsan.

***

Mən səni insan bilib,
İnsan kimi dindirdim;
Demə; - insan deyiləm,
Əməlinlə bildirdin.

***

Nadan əlindədir ipimiz, Vətən,
Hürür özümüzə itimiz, Vətən.

***

Alimi qorxaq Vətən,
Zamandı, qalxaq vətən!

***

Kiminə elə,
kiminə belədi dünya!
Düşmüsən,
Ölüncə varsan, belədi dünya!
Kim kimdi, kim nədi,
Hamıya bildiyini elədi dünya,
Günəşin
qalaktika evində
Günəşə kölədi dünya!

***

Axtar məni, axtar,
Axtar, hələ tapmamısan.
Bir az güman içindəyəm,
Bir az duman içindəyəm,
Lilli suda balığam,
tutmamısan!..

***

Şeiri yazmıram ki, oxusun yetən!
Oxusa bir qanan, əzizim, yetər!

***

Nə ucasan, qoca dünya,
Nə qocasan, uca dünya!

***

Qorxaqlar itirib ağlını,
Qurbanlıq qoç kimi kəsər oğlunu.
Təki ağasına yarısın işdə,
İtməsin yaltaqlıq şirəsi dişdə.

***

Əllərim açılıb günəş boyunca,
Əmmişəm günəşi hər gün doyunca.

*Bağdad, aprel 2002*

Mənə gərək deyilsən;
Çörəksən, su deyilsən,
Susan, çörək deyilsən.

Mənə gərək deyilsən;
Ürəksən, qan deyilsən,
Qansan, ürək deyilsən.

Mənə gərək deyilsən;
Necə gedim səninlə?
Gəldim, - gedək - deyirsən.

Mənə gərək deyilsən;
Sənsiz dünya cənnətdi,
Cəhənnəmdi sənli Yer!

***

Sənin qismətinə günəş düşəndə,
Mənim qismətimə ulduz düşübdür.
Sənin qismətinə Maral, ya Ceyran,
Mənim qismətimə quduz düşübdür.

*Bağdad, may 2002*

Ömrüm boyu;
qoynumda ilan bəsləmişəm,
İnsanlığımdan!..
İlan dönməyib ilanlığından,
Mən də insanlığımdan!

***

O şeirlər ki,
Süzülüb qanımdan,
Budağam;
Meyvəmdi, barımdı,
üzülüb canımdan.

***

Gözləri; - iki gilə üzüm,
Həyası; - cuna kimi
süzüm-süzüm.
Üzünün qarası; -
qarası getməyən ocaq daşı,
Bilmək olmur kimdi
ocağındakı.

***

Daşların yanağından, -
közərən yanğıdan,
Bildim ki,
Sən keçmisən.
İzləyirəm izini;
Muncuq-muncuq ayaq yerini
Təsbeh kimi çevirə-çevirə,
Tapacam özünü.

***

Mən səni
bir nöqtədə gözləyə bilərdim,
gəzməyə bilərdim.
Hara getsən,
bu nöqtəyə gələcəkdin,
Gec, ya tez.
Eşqin cazibəsi
çəkdi məni dalınca.
Odur ki,
Ömrüm yollarda qaldı, -
Ev görmədim doyunca.
Ömrümü bir ovuc darı kimi

Yollarına səpdim
ömrüm boyunca!..

***

Məni atıb,
İlham yatıb,
Sərməstəm, sərməst.
Şeir yazmaq istədim,
Yaza bilmədim;
Nə hecalı,
nə də sərbəst!

***

Uravatsız, eyləyib salma qiymətdən,
Zərdən qiymətlidir sözlərim mənim.

***

Sənin gözəlliyin göz qamaşdırır;
Aşiqlər üzünü görə bilməyir.
Qənim kəsilmisən özün-özünə, -
Aşiqlər yanına gələ bilməyir.

***

Mən bilirəm dünyanın
harasından harasına gəlmişəm.
Elə bilmə qarasına gəlmişəm.
Çəkmək üçün sığal Yerin
yarasına, gəlmişəm.
Dərd əlində ağlayanda analar,
Sinə tutum gözlərin
Bıldır-bıldır qorasına,
gəlmişəm.

***

Dost! - dediyim, dost,
Boyuna görə yox,
Ürəyinə görə
Balacasan, balaca.
Bu balacalıqla,
Yer dağıla, göy uça,
Tanrı qıymaz, sərçələr,
Qartal yerinə uça.

***

Ürəyimin dərdi dağdan böyükdü,
Əl boyda ürəyə dağ necə sığdi?
Dərdim bulud kimi bölük-bölükdü,
Bulud kədərini göy mənə sağdı!
Heyrətdi, dəhşətdi, bu ət ürəyim,
Bu qədər qəm yeyib, hələ də sağdı.

***

Sözsüz, sözümün qüdrəti çoxdur, bilirəm mən,
Neyçün, niyə bəs qiyməti yoxdur, bilirəm mən.
Yaltaqlıq edib söz demədim, ac yaşasam da
Əlbəttə, dəyər yüz ömürə, az yaşasam da!

***

Sual;
- Böyük nifrət ədəbiyyatı yaranır.
- Kimə?

***

Əbədi çağlayan harayam, səsəm,
Uzun əsrlərə, illərə bəsəm.

***

Nadan dedi;
- Mən eşşəyəm, anqırıram, öyməlisiz,
Niyə görə döyməlisiz, söyməlisiz?

***

Eşqim,
Çırpınan könlümün qəmi, dərdisən,Bütün dərdlərimin sən ən mərdisən.

***

Əllərin əlimdə yatdı bu gecə,
Nə şirin yuxuya batdı bu gecə?!
Bilmirəm hardayam, gülüm, əllərin
Gecəni gündüzə qatdı bu gecə.

***

Boş baş dik olar,
Boş sünbül kimi.
Xeyri, faydası olmaz
Qanqaldakı gül kimi.

***

Oxu, düşün,
Düşün, oxu;
Vaxtında çəkmişəm,
Atmışam oxu?

***

Mən bəxti qaranın
Qara düşüb bəxtinə
Ağrı verir illərlə
Yara düşüb bəxtimə.

***

Heç kimə düşmən deyiləm;
Nə yerdənçıxan,
Nə də göydəndüşən deyiləm.

***

Həyat dolu dənizəm;
Sevindim, lovğalandım,
Misra-misra dalğalandım,
Çırpıldı sahilimə
Dalğa sözüm, dalğa andım.

***

Baxma köhnə arabatək laxlayır,
Enən olsa alçı durur sümüyü.
Ucalanla kin, ədavət saxlayar.

*Şamaxının Cabanı kəndində Şirvanşah Fərrux Yassarın qəbrini abadlaşdırmaq üçün bir neçə imkanlı adama aşağıdakı məzmunda şeir və qısa anlayış yazdım. Kimsədən səs çıxmadı.*

Saxla bu məktubu evdə yadigar,
Bir gün İskəndər də eldə yad olar.
Oxuyar məktubu nəvən, nəticən,
Sənə - rəhmət - deyər, qəlbi şad olar.
Var-dövlət silinib gedəri şeydi,

Yaxşı iş, yaxşı ad qalacaq eldə.
Hər kim insanlığa xidmət edərsə,
Rəhməti mükafat olacaq eldə.
Deyərlər - kim görüb bu rəhmət işi?
Tarix cavab verər filankəs kişi!

*3 noyabr 2005*

***

Hər əsgər qeyrəti-vətən eşqidi,
Vətən də, millət də bundan asılı.
Bir əsgər itirsə milli qeyrəti,
Vətən də, millət də boynu qısılı.

***

Yad ellərin sərçəsini qartal bilir,
Öz elinin qartalını sərçə görür.
Qardaşını dahi görsə, diri ölür.
Saman kimi,
Gözü göydü, saçı sarı -
dindirsələr, nalə çəkər kaman kimi.

***

Cangüdən,
Dünyanın ən inci adamı mənəm,
Dünyanın birinci adamı mənəm,
O kimdi ki, qorunur?
O, bu gün var, sabah yox,
Günahı çox, bir ahı yox.

Qurd quzudan qorunur?!
Qəzəbimdən
dişim zəncir gəmirir,
Zəncir dözür,
Dişim dözmür, qırılır.

***

Körpə nəvəm,
Dünyanı çiynimə alıb gedirəm,
Hər işdə qalibəm, qalib gedirəm.
Sən şair ömrümün gələcəyisən,
Ömrümün-günümün görəcəyisən.

***

Yağış yağır, daş gülür,
Yağışa qatlanmayır;
Kəsək, daşın halına,
Ağlayır, utanmayır.

***

Gülməlilər gülürlər -
Gülməli olmayana,
Qapısında mələyən
Rüşvəti olmayana.

***

İçimin kini yandı.
Dərd odundan,
Sevgimin gülü yandı.
Bir ah çəkdim,
Göydə ulduzlar diksindi,
Yer kürəsi dayandı.

***

Kasıb həyatıma baxıb gülənlər,
Bu zəngin ömrümə qibtə edirlər.

***

Qəbir kimi susacaq
Qəbirdə yetim eşqim.
Nə qədər sağam,
Sevib-sevilməkdi işim.

***

İlham pələngiyəm,
Söz nəhəngiyəm.
Sözümlə
Ölkələr fəth edəsiyəm
Güləcək nəsillər planetlərə,
Uzaq qitələrə yol gedəsiyəm.

***

Mən Günəş oğluyam, mən yanmalıyam,
Qaranlıq gecəni mən danmalıyam.
Mənim zəmanəmdə, mənim əsrimdə
Nadanlıq hökm edir! Mən donmalıyam?!

***

Baxma ki, ürəyim belə yuxadır,
Zəmanə mənimlə əlbəyaxadır!..
Sözün qılıncıyam, yara kəsməsəm,
Görərsən - haqq! - deyən qan-yaş axıdır.

***

Söylə, görüm necəsən, sevimli yarım,
Başım ağrıyır - dedin, yarıldı bağrım!

***

Mənim şair bacım, şair qardaşım,
Mənim şeir bacım, şeir qardaşım,
Uzaqdan uzağa - Salam - deyirəm,
Görüb, görmədiyim sair qardaşım.

***

Dedilər ki, bu gecə bəxtimə yarım gələcək!
Atılıb-düşdüm uşaqlar kimi mən.
Qınayırlar!
Qınayanlar nə bilir,
Yar ilə yarım gələcək.

***

Günəş səhər-səhər işıq ağlayır,
Dünyanın belinə işıq bağlayır; -
Dünya cavanlaşır, dünya gənclşir,
Qayıdır ilkinliyə.
Hər gün doğulanı basıb bağrına,
- İlkim! - deyir.
Süpürür qocaları
- Çirkim! - deyir.

***

Gözlərin işıqla doludur,
İçməklə qurtarmaz.
Zaman səni aparsa,
Bir də mənə qaytarmaz.
Vaxt var ikən,
Bax mənə,

İşıq içim doyunca.
Səni unuda bilməyim
Ömrüm boyunca.

***

Çağlayan sinəmə dağlar çəkilib,
Dağımı gördükcə dağlar kiçilib.

***

Günəşin qığılcımı,
Gecənin Ay çırağını yandırdı.
Ay da qığılcımladı ulduz-ulduz,
Gümüşləndi sular,
Navalçadan asıldı buz.
Yolçular yolu gördü.
İnsanlar
Yerdən göyəcən ümid hördü.

***

Yanmışam, şölə çəkir,
Ürəyim, köz yerinə.
Görərəm, göstərərəm,
Gözünü alsa fələk,
Qoy məni göz yerinə.

***

Gecə sözdən keçirəm,
Novruz yumurtasıtək
Sözü sözə vurub
Söz seçirəm.
Söz çinadanım tutunca,
Söz yığıram,
Oluram söz kürəsi -
Elə bilirəm,
Məndən kiçikdi Yer kürəsi.
Söz böyüdəni
Kim böyüdər söz kimi?!
Baxma ki, əlindən sinəm dağlıdı,
Yar, mənim ürəyim sənə bağlıdı.

***

Niyə solub-saralırsan,
Gül, ölümə sarılırsan?!
Sən sarmaşıq,
Ölüm çinar deyil ki,
Deyəm ucalırsan!

***

Ürəyim işıqdı, qaranlıq deyil,
Azmarsan, arxayın gəz ürəyimdə.
Sümüyü çırtlayar ulu Babəkin,
Yolunu gözləyir Bəz ürəyimdə.

***

İçimin içində ağrı gizlənir,
İçimin içində sevinc gözlənir.
Mən də kainatam, gündüz gecəmi,
Gecə gündüzümü qovur, izləyir.

***

İyunun istisində

qızılgülə su verdim,
Ölüm zirvəsindən endi qızılgül,
Sevinc butasına döndü qızılgül.
Yel əsdi, əsmədi, deyə bilmərəm,
Qızılgül baş əyib təşəkkür etdi.
Dedi - sağ ol, sağ ol, ey böyük insan,
Köklərim payıza ölümsüz getdi.
Gəl, sənin alnından öpüm, ay insan,
Sənin halalındı ətrim, ay insan.

***

Əlin əlimdə isti,
İsidir məni.
Əlin əlimdə tüstü, -
Azdırır məni.
Bezar oldum dilindən,
Hara gedim əlindən?

***

Kiməm? Xaqanidən söz aça bilim?
Düşmüşəm tilsimə, olmuşam əsir.
Günahkar uşağam, ata önündə
Ürəyim titrəyir, əllərim əsir.

***

Əlbəttə, pərt olar, ata önündə
Böyüklük eşqinə düşərsə uşaq.
Yaşaya bilirsən, yaşa İskəndər,
Xəbisdən, nadandan, yaltaqdan uzaq,
Əgər təftiş etsə atanı uşaq.

***

Göydə gəzən
Qəmlə dolu buludlar
Ürək adlı dənizimdə boğulan
Sevincimə hüzür saxlayır.
Yağış yağmır,
Mələklərdi, mənə baxıb ağlayır.

***

Mən sənə baxdım ki,
Nurlanasan,
Baxıb qürurlanasan,
Qəlbimi işıqladasan,
Ümidimi
Barı,
İşıldaböcək kimi
İşıldadasan.

***

Bakıda millət
İçir Kür suyu.
Sonra da
Ağlayıb hönkür-hönkür,
Gözlərindən tökür suyu.
Bu necə möcüzədi;
Biz içirik şirin su,
Göz yaşımız duzludu.

***

Neyləmişəm gülüm, sənə,

Yandım, qaldı külüm sənə.
Elə yandın, söndürməz
Axsa Araz, Kürüm sənə.

***

Pərsəng ola bilməyir
Dağ, fikrimə, sözümə.
O qədər yüklənmişəm,
Gücüm çatmır özümə.

***

Ürəyim uşaqdı, aldanır tez-tez,
Gözəllər oduna odlanır tez-tez.
Bu qoca yaşında İskəndər, adın,
Gənclər sırasında hallanır tez-tez.

***

Paxıllar, -
Köhnə qazan kimi
Dibi paxırlar!
Yaxşı işdi, Siz
Paxıllıqla məşğul olun,
Mən şeir yazım.

***

Çeynənmədə varlıq,
Çeynənmədə insan!
Sən, mal kimi;
- Cənnətdi! - deyib
Kef eləmərsən,
Bunları duysan.

***

İkidi İskəndərin, dünya;
Biri o başında, biri bu başında.
Biri torpaq acı, biri söz acı.
Baxıb gülürsən acı-acı.

***

Əllərim əlimdə quzu kimidi,
Eşqin, məhəbbətin duzu kimidi.
Vüsalın nə qədər uzaq olsa da,
Dilimdə bal dadan arzu kimidi.

***

Ey böyük dünyanın balaca oğlu,
Balaca dünyanın böyük oğlu ol.
Günəşdir insanın özündə ağlı,
Təpədən-dırnağa nurlu ağıl ol.

***

Ulu Tanrı,
Paxılların -
Bu qurdların əlindən
Yaşamağım çətin olub.
Nə yaxşı ki, hələ sağam,
İskəndərin mətin olub!

***

Qız, sənə yar olaydım,
Sinənə baş qoyaydım,
Yatıb, yatıb, yuxudan
Qucağında doyaydım.

***

Bu dərdlər ki, mənim var,
İnanma dost,
İnanma ki, sağ qaldım.
Yerdən çıxdı, göydən düşdü möcüzə,
Gözəl gördüm, sağaldım.

***

Baxma ki, gözəldi xanımlar, qızlar,
Qəlbimi, ruhumu oxşayan yoxdu.
Mənim ilk sevdiyim o gözəl qıza,
Neyləyim, dünyada oxşayan yoxdu.

***

Bozarıb, qaralıb göydə buludlar,
İndicə hirsini tökəcək Yerə.
Utanıb göydəki hay-harayından,
Əriyib göylərdən çökəcək Yerə.

***

Buluda bax, buluda,
Dağdı, zirvələnib durub havada.
Göylərə seçilmiş hökmdar kimi,
Bulud taxt-tacını qurub havada.

***

Peşiman deyiləm, mən öz eşqimi,
Səpdim ürəklərə diri dən kimi.
Ümidə, arzuya həyat, can verdim
İsa ölüləri dirildən kimi.

***

Baramaqurdu tək ömrümü verib,
Sözün kobudunu ipəkləyirəm.
Baxma, necə adda kitabım çıxıb,
Hələ söz yolunda iməkləyirəm.
Torpağam, köksümə tikan əkirlər,
Tikanı böyüdüb çiçəkləyirəm.

***

Dünyanı silkələyə biləm,
Dəymişi dura-dura,
Tökülə kalları.
Dəymiş olsa korları, karları,
Həyat cənnət olar.

***

\- Həyat necədi?
\- Yalan düzə,
Talançılar, şişqarınlar
Bizə aman verir ki,
Bilək həyat necədi?!
Açılmayıb səhərim,
Hələ gecədi.

***

Ağaclar çiçəkləmədən öncə,
Su da qaynamadan öncə
Tumurcuqlanır.

***

Əllərin əlimdə çiçək kimidi,

Ətrini çəkirəm, tükənmir ətri.
Kim dedi - əllərin sümükdü, ətdi.
Eşitsən, inanma, yalan söhbətdi.

***

Dünyanın üstündə Günəş yanırdı,
Dünya çiçək kimi pardaxlanırdı.
Elçi göndərirdi çiçək-çiçəyə.
Ağaclar havayla adaxlanırdı.
Gül gülü tozlayır, çiçək çiçəyi,
Qızlar oğlanlara oğrun baxırdı,
Gözlərdən ürəyə sevgi axırdı,
Dünyanın məhəbbət, sevgi çağıydı...

***

Əncir ağacında əncir ballanıb,
budaq-budaq sallanıb,
Sərçələr dimdikləyir
Nə dərdi var, yemini
Allah özü göndərib.
Yemək olmaz! - Toz basıb.
Yeyəsiyəm,
Nəfsim məni aldadıb.

***

Nə astarı var,
Nə üzü, nə də ölçüsü,
Boldu elçisi,
Kim istəsə, geyə bilər.
Geyin, yat!
Soyun, at!
Vecinə deyil,
Bu həyat,
Bu da belə qadındı!

***

Sən gəldin,
Elə bil işıq yandı;
İşığı çoxdan sönən
Otağım işıqlandı.

***

Sən xəstəsən,
Könlüm qorxu içindədi.
Həsrət bütün dərdləri yığıb
Qoşunlayacaq.
Səni qarşılayacaq bir qəbir də
Qəbirləri qonşulayacaq!..
Yazıq mənim halıma...

***

Ömür vəfa etdi,
Sözümü dedim.
Bir az da vəfa etsə,
Zirvə mənimdi.

***

Mən dünyanı sevirəm,
O, məni sevməsə də.
Mən xalqımı sevirəm,
Məndən nə söyləsə də.

***

Namərdin dilindən od damar deyə,
Namərdlər gəlincə, səslədim yarı.
Amandı, toxunar yel, külək deyə,
Canımın canında bəslədim yarı.

***

Bir ömürdü yol gəlirəm,
Sancım bayrağımı söz zirvəsinə.
Həlakam, tər seli axır dabandan,
həsrətəm, o zirvənin
Bir çimdik gülməsinə.

***

Külək necə də duyğuludu,
Cumur, soyuğa həssasdır haram.
Döyür əldən salınca,
Ağrı zurnası çalınca.

***

Kirpiyindən asılmışam,
Budaqda meyvə kimi.
Gözlərinin
Günəş işığında yetişirəm.
Hələ kalam,
Kirpiyində qalacam.

***

Balası əsgərlikdən gələn ana kimi,
Başı açıq, saçları tökülü,
Ayaqyalın, bağrı sökülü
Cumdum gəlişinə.
İnsaflı ol,
Gör, mənim kimi gələn varmı
Görüşünə?!

***

Ay süzülür buluddan,
Ələkdən su kimi.
Mən çimirəm Ay nuru suda.
Ələ düşməz,
Səadətdi, fərəhdi bu da.

***

Nə deyim zamanın gərdişinə,
Məni sənə sevdirmir.
Nə də ki, - rədd ol! - dedirdib,
Məni sənə söydürmür.
Tanrı məni sənsizliyə atırsa,
Vallah, məni bəla gözləyir.

***

Könül verib - Yarım! - dedim,
Mənə verdi əzab “yarım”.
Səbr elədim, öldü namərd,
Qalib gəldi əzablarım.

***

Tutmuşam üzümü Xəzərə sarı,
Oxşayır könlümü dəniz havası.
Əl çalır, rəqs edir, zəncir gəmirir

Sahilə çırpılan dəniz dalğası.

Ürək göy dənizin suyunu içir,
Ciyər təmiz hava, göz maviliyi
Ruhumu oxşayır dənizin iyi.

***

Qılıncsan,
Sıyrılıb vaxtın qınından,
Kəsmisən yolunu gəlib-gedənin.
Sənə layiq deyil hər gəlib-gedən,
Halaldı, başını kəsdin gədənin.

***

Yolun ucu düyün düşüb,
Açılmır ki, sən gələsən.
Yol yorulub,
Yol qırılıb hardasa.
Calanmır ki, sən gələsən,
Yoxsa, gələrdin.

***

Asılmışam gözümdən,
Gözüm bərələ qalıb;
Gedəcəyim yol, cığır
Eldə bir ələ qalıb.
Deyin, məni nadanlar
Gözlərimdən assınlar,
Ağlımdan asmasınlar.

***

Ləbin kimi dərdim hanı, mən bu bəladan xəstəyəm,
Gəlməyini bildiyimdən, mən mübtədadan xəstəyəm.

***

Olsa da bülbül səsi damarımızda,
Qarğalar yaşayır damlarımızda.

***

“Duzlu göl”də görmüşdüm,
Axtarıram, tapmıram.
Deyirəm - bəlkə
“Duzlu göl”də ərimisən duz kimi.
Gözəlim,
Bir - ah- çəkib qurudacam “Duzlu göl”ü,
Bəlkə səni tapdı gözlərim...

***

Yaz gəlir, gözəllər çiçəkləyəcək,
Arı gözlərimiz çiçək yeyəcək.

***

Gözlərinin üfüqündə itdim,
Günəş üfüqdə itən kimi.
Gözlərini yumub-açdın,
Gözlərinin üfüqündə bitdim,
Günəş üfüqdə bitən kimi.

***

Sözün - ürəyə qoyulmuş
Atom, hidrogen nüvəsidi,
Atılmayan güllədi,

Sərrast atılıb, atılmayıb,
Bilmirəm.
Atom da, hidrogen də
Partlayıb sinəmdə,
Niyə ölmürəm?!

***

Görək nə göstərir bizə bu həyat,
Yarısı təzədi, yarısı boyat!

***

Sən dənizsən,
dodaqların dalğalar.
Danışırsan, dalğaların sözləri
Çırpır mənə,
Çırpılıram qayalara.
Kimdi, kimdi qulaq asan,
Məndən çıxan qıyyalara?!..

***

Birinə dedim;
- Dünyanı çiynimə qaldırmışam ki,
Xoşuma gəlməsə, tullayım, gedim.
Qışda buz üstündə danaya döndü,
Baxdı soyuq-soyuq, baxışı söndü.
Susdu divar kimi! Kişi dinmədi,
Nə dedim, qanmadı, işi bilmədi.
Gör necə insan var, - noxtalanmalı,
Ömrün cərgəsində bəxti yanmalı!..

***

Ürəyim quş olub uçurdu göydə,
Mavi göy kitabı oxusun deyə,
Göyü varaq-varaq açırdı göydə.

***

Bir ata belindən gələn oğullar,
Nədən eyni deyil, rəngbərəngdilər?
Ayrıdır düşüncə, ayrıdır ağıl,
Ataya bənzəmir nədən hər oğul?!

***

Söz dedim, fikrə getdi,
Silkələndi bu dünya.
Yaman tünddü məcazı,
Sirkədəndi bu dünya?!

***

Sıyrılsam özümdən bir qılınc kimi,
Tüpürər üzümə dilimin kini.

***

Göylərdən torpağa endiyi gündən,
Artır paxıllığı göyə insanın.
Torpaqdan püskürür uca binalar,
Artır yaxınlığı göyə insanın.

***

Müxbir olub qız balalar,
Hər gün ölü söz balalar.
Kim kisəni dolduracaq,

O kisədə qız bal olar.

***

Mənim məhəbbətim, şirindir ancaq,
Şəkəri görünmür, qəndi görünmür.
Mənim məhəbbətim düşüb zindana,
Divarı görünmür, bəndi görünmür.

***

Alim oxuyur,
Bu səs fəth eləyib çox meydanları,
Sökür Yeri, göyü, meridianları.
Tökür ulduzları göy şabaş kimi,
Əsrə meydan açıb səs savaş kimi.

***

Ay Günəş işığı, hara gedirsən,
Saçıl üstümə ki, qönçəm gül açsın.
Sözüm ürəyimdə qövr edir gülüm,
Saçıl üstümə ki, sözüm dil açsın.

***

Baharda, dağ, dərə səs edər mənə,
Çəmən gözəlliyi bəs edər mənə,
Ürəyimcə yaşayım.

***

Gül gülə naz edə, quş avaz edə,
Təbiət çayları kaman, saz edə,
Cənnət axtaranın zatına lənət.

***

Gözlərin
Ölüm fərmanı oxudu mənə:
Ürəyinin xəbəri varmı?
Dilin nə deyəcək?
Gözləyirəm,
Başı kötük üstə
Cəllad gözləyən kimi.
Hakim əlindəki
Bayraq kimisən:
Nə vaxt enəcəksən,
Ölüm qurtarım.

***

Ay qız,
Bəm-bəyazsan,
Hələ yazılmamısan.
Hələ nə qış,
Nə də yaz olmamısan.

***

Səni tapmışdım,
İtirdim -
Bakının tünlüyündə.
Taparam;
Samanlıqda iynəitirən,
İynəsini tapanda.

***

Ürəyim
Sinəmdə ağır yol gedir -

Yıxıla-yıxıla, dura-dura.
Ürəyim öz işində,
Arzum öz işində.
Güzəşt yox, heç birimizdə.
Xərçəng, balıq,
Ördək kimiyik,
Sayırıq yerimizdə.

***

Mənim ömrüm məndən böyük,
Mənim ömrüm mənə yük!
Daşımıram qocalığa,
Daşıyıram ucalığa!

***

Ayağına dəyən daş,
Ürəyimi dəldi getdi.
Həyatıma qıymadı,
Əzrail gəldi, getdi.

***

Əllərim əlində uşaq kimidi,
Böyütməliyəm.
Əllərin əlimdə işıq kimidi,
Böyütməliyəm,
Gələcək üçün.

***

Dərdim ərköyündü,
Dərdim kürəndi.
Füzuli dərdinə - uşaqdı! - deyib,
Güvəndi.

***

Dağların qoynunda bir oğlan qaçır.
Bəlkə də o yerdə ilk cığır açır.
Bulağa köksündə süfrə endirir,
Laləni, nərgizi, otu dindirir.
Baxır solan gülə, qəlbi qorlanır,
Oğlana baxdıqca dağ qürurlanır.

Bir baxın, bir baxın,
Torpaq ürəyindən çiçək sıxıbdır: -
Çəmənə qaçışan körpə balalar,
Deyir ki, - çəmənə ulduz yağıbdır.

***

Bərbərin söz üfürdüyü
Quyu kimiyəm: -
Nə sirrim var,
Çəkir məndən tütək dilim.

***

Gözlərim qorxu çəkir: -
Boylanır sağa-sola,
Ürkək kimi.

***

Ürəyə dəhşət çökür; -
Döyünür, deyinir.
Dilim susmur; -

Kişnəyir erkək kimi.

***

“O yoxdu”, “bu yoxdu”,
“Ağrıyıram” - deyib sızlama,
Ürəyimi buzlama!..
Qal mənimlə,
Dəyişim halını,
Qaynadım soyumuş,
Ruhu soyulmuş,
Qanını.
Pozum,
Təzədən yazım alnını,
Məhəbbətimlə!..
Bil, həyat, yaşamaq nədir.
Onda bilərsən ki,
Hər açılan səhər bir xəzinədir.

***

Oyatmaq istədim ölü ruhunu,
Oyana bilmədi, sən taxta qaldın.
İrişdin üzümə sən elə bildin,
Şah öldü, yerində - sən taxta qaldın.

***

Yanan papirosdu,
Tüstülənən insan.
Çox da deyil asan!
Budur papiros fəlsəfəsi!
Kəsir insan nəfəsi.
Nədəndir insanda
Bu ölüm həvəsi?!

***

Misra-misra dodaqlar
Sətirlənib şeirimdə.
Lalə-lalə yanaqlar
Ətirlənib şeirimdə.
Gözlərindi
Şeirimdəki söz ulduz;
Mərc gəlmişik,
Hünərin var, sön, ulduz!..

***

Qışda:
Gecələrin süd kimi olur,
Gündüzündə göz qamaşır,
Bəyazlıqdan.

Qışda;
Gecənə-səhər desəm,
Necə olar?
Adına - Ağ şəhər - desəm,
Gözəl olar, Şamaxı.

***

Əlini belinə vurub “F” kimi,
Nə durmusan yolum üstə, a lovğa?!
İlan kimi fısıldamaq bilirsən,
Başında çatlayar qurduğun qovğa!

***

Üzümdən şirə çəkiləntək,
Sözdən çəkilirəm.
Bürünc heykəllər kimi,
Sözdən tökülürəm.

Söz məndən tökülür,
Buluddan yağış töküləntək.
Boşalıram,
Gecədən boşanıram,
İçimin qaranlığı sökülür,
Dan yeri söküləntək.

***

Yamanlar çəkir bəlasını,
Mən bəladan qurtarmıram.
Çalışıram, axtarıram
Ötənləri qaytarmıram.

***

Dindirməyin, dərdliyəm,
Dinsəm, susa bilmərəm.
Dərd böyükdü mən necə
Edim qısa, bilmirəm.

***

Mənim şeir dilim qanadlı quşdu,
Uçub, uçub, ürəklərə qonacaq.
Köçəri quş kimi köçəri deyil,
Yuva qurub, ürəklərdə qalacaq.

***

Əbədi nəğməyəm, əbədi səsəm,
Zirvələrə qanad çalan həvəsəm,
Mənzil uzaq, yolum daşlı olsa da,
Bu yollarda yorulmayan nəfəsim.

***

Mənim həyatımın gündoğanısan,
Sən Günəş, doğmasan, neyləyə billəm?
Günəşsiz kainat sönürsə, sənsiùz
Demək yaşamıram, gülüm, ölüyəm.

***

Tül geyim içində
Quyruq kimisən;
Çalxalanır,
Silkələnir vücudun.
Hər nə desən, hazıram -
Buyruq kimisən.
Baxıram, baxıram,
Gözlərin deyir;
- Şair, desən, deməsən də,
Duyuram kimsən.

***

Gəl, səni yalayım duz kimi,
Duz ucuzdu deyə,
Elə bilmə, ucuz kimi.
Duz həyatdı! -
Yalayım həyat kimi.

***

Qoyun sürüsünü bölənlər kimi,
Görmək istəmirəm, söz bölənləri.
Mənim sevgilimdir sözün gözəli,
Neçə - Mən! - deyəni sildim səhnədən
Söz ilə əl-ələ verəndən bəri.

***

Əlinin əlimə ixtiyarı var,
Əlimin əlintək bəxtiyarı var.
Necə sevinməyim, gülüm, həyatda
Mənim, sənin kimi bəxti, yarı var.

***

Canımdan sıxsalar dərdimi,
Çəkimdən çıxsalar dərdimi,
Məndə nə qalar?!

***

Gözlərimin hədəfisən,
Ürəyimin fərəhisən.
Dolu sevinc qədəhisən,
İçərəm səni.

***

Səni sevmək üçün doğulmuşam mən,
Yoluna, izinə dağılmışam mən.
Məni yığmaq üçün izimlə qayıt,
İzimə tökülən mənləri ayılt.

***

Mənim ürəyimin sevgi odu var,
Kimdəsə adı var, məndə dadı var.

***

Mən sənə həsrət qalan
Süd qoxulu quzuyam.
Təki, səsimə səs ver,
Hər nə desən, razıyam.

***

İşığın işığında
İşığı söndürdüm.
Elə bil məndən ötrü
Yananı, öldürdüm.

İşığa yazığım gəldi,
Özümə nifrətim.
Nankorlar belə edir,
Əvəzində hörmətin!..

***

İkibaşlı dünyanın
Bir ucundan sən yapış,
Birindən mən:
Bir, iki, üç,
Ya Allah!
Görürsən?
Elə bil qanad açdı,
Dünya uçdu.

Atılıb-düşürük uşaq kimi.
Bütün insanlar unutsun kini,
Ürəklərə sevinc dolsun,
Əbədi bayram olsun.

***

İnsan,
Sən hər yerdə insansan;
Ağlayırsan, gülürsən,
Bilirsən, bilmirsən,
Qeybətin var,
həmişə, hər yerdə
Qiymətin var.

***

Tanrı bəlasısan, yoxsa nəsən sən,
İnsana bu qədər zülm eləyirsən.
Buğda dilin olsun, yoxdusa buğdan
Niyə ürəklərə dərd bələyirsən?

***

Ağlımı başımdan alan gözəlin,
Ağılı yoxdu ki, ağlımı aldı?
Elə məharətlə aldı ağlımı,
Əvvəl elə bildim ağrımı aldı.

***

Ürəyim məhəbbət zirvəsindədi,
Zirvədən baxıram gördüklərimə.
Doğulan da mənəm, ölən də mənəm,
Zirvədən baxıram öldüklərimə.

***

*Anası ölmüş dostum Hacı Mahmud üçün təsəlli*

**I**

Əzizim, bilən olmaz,
Dərdimi bölən olmaz.
Ölsə də qardaş, ana,
Ölənlə ölən olmaz.

**II**

Dərd eləmə, a dərdlim,
Göyə büləndi dərdim.
Əl uzatdım gül dərim,
Ömür boyu qəm dərdim.

***

Baxdın,
Gözlərindən gözlərimə nur axdı,
Əllərim bu dünyanı buraxdı.

***

Sən keçirsən qarşımdan,
Ağlım çıxır başımdan.
Yıxılıram, yol olum.
Bəyənmirsən yol məni
Zənd edirsən kol, məni.

***

Dünya qəribsəyir, axşam çağıdı,

Bütün duyğularım, düşüncələrim,
Sənsizləyibdir.
Göydə meydan açan qanadlı quşlar,
Yuva həsrətinə dənsizləyibdir.

***

- Qocasan, a şair! - Deyib mənə sən,
Qohuma, qonşuya güldürdün, gözəl.
Bir vaxt nazın ilə öldürdüyünü,
İndi də dilinlə öldürdün, gözəl.

Mənə - Qoca! - deyib gülən gözəlim,
Gəl, arxı tullanaq, bil qoca kimdi.
Oturub-durmusan təpə görmüsən,
Sən necə biləsən dağ-uca kimdi?

***

Baxırsan;
İçinin tufanı
İçimdən keçir.
Mən də tufanlanıram.
İçim
Tufanlı dəniz kimi
Aşıb-daşır.
Misra-misra dalğalar
Ürəkləri dolaşır.

***

Dünya öz işində,
Mən də öz işimdə.
Dünyanın ləzzəti
Mənim dişimdə,
Mənim ləzzətim
Dünyanın dişində.
Əmib, əmib, bu dünyanı,
Yatıram döşündə.

***

Qayıt, mənim gəncliyim,
Ölüb-yatan duyğuları
Ayılt, mənim gəncliyim.
Ayılt, mənim gəncliyim.

***

Döy ömrümün qapısını,
Ayılt məni.
Elə ayılt,
Sevə bilim gözəlləri,
Dağları, düzənləri.
Allah səni saxlasın,
Elə ayılt ruhumu,
Məhəbbətim çağlasın,
Görə bilim uzaqları.
Qayıt bir də ömrümə,
Aşa bilim aşırımları.

***

Vəfa umdum vəfasızdan,
Cəfa gördüm, sızladım hey.
Soyuq sözdən, baxışlardan
Gecə-gündüz buzladım hey.

***

Açılmısan səhərə;
Girə bilmisən
Dahili, dəlili,
Sürülü, naxırlı,
Qeybətcil, paxıllı,
Ürəkləri açıq, paxırlı
Şəhərə.

***

Məndən uzanan kölgəm,
Olsa da məndən  böyük,
O deyil mənə bir yük.
Ondan ağırdır, ağır,
Başımdakı bir tük.

***

- Get! - deyib aləmə güldürdün məni,
Get, daha rahat ol, öldürdün məni.

***

Bakıda - beşinci qatda,
Axşamlar evdən qaçıram; -
Damımız;
Günəşi soydunca,
İstidən soyununca.

***

Gözləri gözümə həsrətlə baxdı,
Həsrəti könlümü çəkib apardı.
Yerdə lövbər salan ağır dağ idim,
Məni saman kimi Yerdən qopardı.

***

Söz mənim Allahım, hökümdarımdı,
Bəzən də cəladdı, - başımı kəsir.
Hələ insaf edir, yazığı gəlir,
Başımı kəsməsə, yaşımı kəsir.

***

Hər gün evimdəsiniz, ürəyimdəsiniz,
A dostlar, qohumlar, məni görmürsüz.
Sözü istəyimə yönəldim deyə,
Məni kürəkləyir həyat kömürsüz.

***

Necəsən, üzü dönmüş,
Vicdanı, ruhu sönmüş?
Səndən əsrlər boyu
Görəsən dünya görmüş?!

***

Ay xanım, eşqimin varsa günahı,
Məcnun ayağına yaz bu günahı.
Kimə - gözün üstə qaşın var - deyib?
Özünü yandırıb bülbülün ahı!

***

Cəsarət alçalır, hünər kövrəlir,
Aslanı, pələngi tülkü pusanda.
Dahilər, susmayın, hünər göstərin,
Nadan dahiləşir dahi susanda.

***

Ay aman, öldürür bu gözəl məni,
Ölümü yumağa mürdəşir gəlsin.
Açılıb torpağın ağzı, var həkim?
Saxlaya bilmirəm, can düşür, gəlsin.

***

Varaqladım dünənləri, bu günü,
Açılmadı dərdlərimin düyünü.
Təmizlədim yamanlıqdan ömrümü,
Anam necə təmizlərdi düyünü.

***

İndi bildim;
Nədən yaranıb "yaltaq" sözü.
Bunu bilmir yaltağın özü.
Yaltağ -
Yalın tağıdı;
Uzanmaz, çiçəkləməz, bar verməz
Su, işıq verəni yoxsa,
Salsalar ağzını yoxuşa.

***

Sən məndən fərəh umma,
Qəmim göyə sığmayır.
Tökülərdi göy yerə;
Qəmlərimdi,
Yerdə göyü saxlayır.

***

Gözlərinin var qərəzi,
Dodaqların bal əvəzi,
Doydurmadın mən mərəzi,
Qaldım ağlaya-ağlaya.

***

- Tanrı payı! deyib məni içdilər,
Təşnələr ləzzətlə - ùox, ay...y... dedilər.
Nurumla qaranlıq yollar keçdilər,
- İskəndər! - deyəndə, - yox ey...y, - dedilər.

***

Sən çiçəksən, dünya güldan,
Əzizləyir dünya səni;
İnsan nədi,
Daş, kəsək də duya səni.

***

Sən incisən,
Sən dünyanın sevincisən
Dünya sənsiz gülə bilməz.
Bahar Yerə hər fəsil,
Sən açdığın izlə gəlir.
Sən olmasan, bahar olmaz,
Qış əbədi yurd salar
Dünya buzlaq olardı.

***

Gizlisən sözlərində,
Səni sözdən çəkir qələm.
İtmisən gözlərində,

Səni gözdən çəkir qələm.

***

Ulduzlar arxasında
Çox ulduzlar gizlənir;
Vaxt güdür, fürsət gəzir;
“Sabah gecdi,
Bu gün tezdi” - deyib
Ağrıya dözür.

***

Pis üzləri qismətimdən pozaydı,
Tanrı səni qismətimə yazaydı!

***

Bu səhər durub qarşımda,
Bu yaşımda
Bir dəli sevda oyatdın başımda.
Bu hünəri, bu qüdrəti alqışlayıram,
Gələcək illərimi sənə bağışlayıram.

***

Eldə gözəlliyin zirvəsindəsən,
Mən qalxa, sən enə bilmirsən, gülüm.
Baxdıqca, ocaqsız, odsuz yanıram,
İtən  saatlardı tökülən, gülüm.

***

Göstərib özünü,
Kişiləri
Bir-birinə qatırsan, -
Niyə günaha batırsan,
Gözəl?
Guya, məni görmürsən;
Umacağım öpüşdü,
Sən onu da vermirsən.

Kirpiyinin ucunda,
Hara gəldi, atırsan -
Bil, günaha batırsan,
Gözəl?

***

Gözlərində gözüm qalıb,
Aparma gözlərimi.
Qal mənimlə, gözündən
Həyata, insanlara
Bax mənim gözlərimlə,
Bilərsən ki, mən kiməm.

***

Mən sənə yetməsəm, sağalmayacam,
Bəlkə, sən gəlincə, sağ qalmayacam.

***

Gül söküb qönçəsini,
Zülmünə dözmək olmur.
Nə qədər zülm etsə də
Zülmündən bezmək olmur.

***

Əllərin elə bil qızıl açardı,

Hər gün ürəyimi səssiz açardı;
Xəbərim olmazdı apardığından,
Ömrümdən, günümdən qopardığından.
Biləndə, gördüm ki, talan olmuşam.
Yoxdu ürəyimin varı-dövləti.
O şair İskəndər deyiləm daha,
Yalan olmuşam.

***

Belədi dünya;
Yanıb, yandırıb,
Üstümə kül elədi dünya.

***

Pisliyim yox sənə,
Qohumlarına, yadına;
Məni salıb oduuna,
Qurban deyib adına,
De, niyə öldürürsən?
Bildim, sən də gözəlsən, -
Başqa rəngdə, çalarda.
Sənin kimi gözəllər
Şahlıq edir sularda.
Sənin qadın xislətin,
Məni göyə qaldırır,
Göydən Yerə salar da.

***

Eşqin məni ey gül, nə yaman əngələ salmış,
Neyçün, qoca vaxtımda məni get-gələ salmış?

***

Mən Günəş işığıyam,
Ay işığıyam, -
Göy üzünün uşağıyam.
Ay ola bilmədim,
Ona görə, gülüm,
Səndən aşağıyam.

***

Sən gözəllik taxtındasan;
Səni taxta çıxardan
Pillələr mən olaydım.
Səni yaşadıb, ölən,
Saatların yerinə
mən öləydim.
Mənə olan qəzəbin,
nifrətin acanda,
Məni planetdən planetə atarsan,
Kirpiyinin ucunda.

***

Səni sevmək peşəm olub,
Bu eşq zövqüm, nəşəm olub.
Eşqin elə yandırıb
Ürəyim həşəm olub.

***

Elə bil ki, uşağam,
Ömrümün bu çağında,
Atam, anam görünmür,
Solumda və sağımda.

***

Buludlar ahımdı, çağlayacaqdır;
Göydə mənsiz qalıb, elə kövrəlib
İndicə kövrəlib ağlayacaqdır.

***

Arazın o tayında,
Kürün bu tayında,
Ayrılıb ayrı durduq
Hərəmiz bir tayında.

***

Aldanıb Çaqqala pişiklə xoruz,
İtin istefasın tələb etdilər;
İt getdi, o axşam, pişiklə xoruz
Çaqqalın qarnında evdən getdilər!..

***

Hər sözüm bir güllədi,
Atılıb nadanlara.
Nadan oğlu nadandı,
Satılıb nadanlara.
Mal-qaradı o adam,
Qatılıb nadanlara.

***

Binadan dərd əhliyəm
Sızlaram illər boyu.
Məni dövran üşüdür,
Buzlaram illər boyu.
Alsa günəş qoynuna,
Qızmaram illər boyu.

***

Başımın başına oyun açırlar,
Başımdı, baş açır baş döyüşündə.
Başı başdan qorxan başlar daş atır,
Baş, dözə bilərsən daş döyüşündə?!

***

Oturmuşuq üz-üzə,
Göz-gözə.
Mən xəyala dalmışam.
Elə bilmə ki, sənə baxıram,
Sənə heyran olmuşam.

***

Can alsa da, qoy alsın,
Gözlərini gizlətmə.
Tabım yoxdu, dözmürəm,
Gülüm, məni gözlətmə.

***

Dünyanın küçə budağında,
Yol budağında,
Almayam.
Nə əkir, nə də biçir,
Məni yeyir həsrətin.
Nə ürək istəyir,
Nə də - Sağ ol! - Deyir həsrətin.

***

Vaxtsız dərilmiş
yemiş kimisən,
hələ şirinləşməmisən.
Səni görüb
Şairləşməmişəm.
Necə şeir yazım sənə,
Hələ
şeirləşməmisən.

***

İt balası it kimi,
Sülənirsən dünyada.
İt balası it kimi
Silinərsən dünyadan.

***

Adımı çəkməyə qorxur çoxları,
Bu qorxu içində dağam dururam!
Qorxaqlar qorxduqca mənim adımdan,
Ay ellər, özümdə qürur duyuram.

***

Başım, beynim dincəlmir,
Yatmaq ilə düz gəlmir.
Yağdıqca hey yağıram,
Bəmbəyaz kağızlara.
Sözüm çatır ürəyə,
Ürəkdən ağızlara.

***

Döşlərin püskürüb qayalanıbdır,
Sel axıb, arası dərələnibdir.
Gözlərim ovçudu, gözlərim üçün
Köynəyin sinəndə bərələnibdir.

***

Gözəlim, ömrüm boyu,
Zirvədəki qar kimi
Ürəyimi buzladı,
Bahar görmüş dağ kimi
Ürəyim quzuladı,
Sənsiz göynəyim deyə,
Ürəyimi duzladı
həsrətin.

***

Günəş Yersiz, - dənsiz qalmaz,
Mənim könlüm sənsiz qalmaz.

***

Sahilsiz bir dənizəm, -
Bülluram, tər-təmizəm.
Nə deyir, desin nadan,
Tanrım üçün əzizəm.

***

Yüküm ağır bir yükdü,
Yüküm məndən böyükdü,
Yükümü kimlər gördü,

Ayaq üstə döyükdü.

***

Yükümü qatar çəkməz,
Ha apar, qutar, çəkməz.
Yığsan Yerin belinə,
Yer şarı atar, çəkməz.

***

Yoxdursa şeirində ilham mayası,
Oxuma, tökülər üzün həyası.

***

Əlin əlimin üstə;
Möcüzə baş verəcək,
Könlün nə desə, istə.

***

Qız, şirinsən, baxıram,
Dil ağzımda göynəyir.
Dumanlanır baş, beyin,
Gözüm səni görməyir.

***

Mən sənin eşqinin taxtı-tacıyam;
Gəl, əyləş,
Mən sənin həsrətlin, sənin acınam.

***

Bu qız "unlanıb",
Gözlərinin içinəcən unlanıb.
Gözlərinin odundan,
Gözlərində "un" yanıb.

***

Elə ki, səni gördüm,
Cəhənnəmdən ayrılıb,
Gülüm, cənnətə gəldim.

***

Gözün gurşadındayam,
Apara sellər məni.
Öləm, sinən üstən
Götürə ellər məni.

***

Bu sərbəst dünyada sərbəstdi şeirim,
Kimsə düşünməsin sərməstdi şeirim.
Şeirim həm məhəbbət, həm intiqamdı,
Sevgidə, nifrətdə sərrastdı şeirim.

***

Bu dünya o qədər qanlar içib ki,
Halaldı, içilsə qanı dünyanın.

***

Kürəyin açıq,
Süd bulağı püskürən,
Sinən açıq-saçıq.
Keçənlərin
Duyğuları oyanır,
Hamı sənə boylanır.
Gör nə günə qalmısan,
Bu yerişi, duruşu,
Kimdən almısan?!

***

Yaradan insan!
Şəriksən Allahla.
O da yaradandı,
Sən də yaradan!
Bu hikməti çoxu bilməz,
O da ölməz,
Sən də ölməz!

***

Yerdə oturmuşdum qara daş kimi,
- Ya Allah, Məhəmməd, ya Əli - dedim,
Söz tutdu əlimdən ayağa qalxdım.
Sözün qüdrətini duymayan nadan,
Sözün daş qaldıran gücünə baxdın?!

***

Baxışlarım
baxışınla qılınclanır,
baxışımda qılınc yanır.
Sən o qədər gözəlsən
Yer qısqanır,
Göy qısqanır.

***

Ürəyim sinəmdə yaralı quşdu,
Qanadı qırılıb, xəbəri yoxdu.

***

Göylərə sığmayır ahım, fəryadım,
Baxıb mənə gülür qohumum, yadım,
Alışan özüməm, yanan özüməm,
Özgəni isidir ocağım, odum.
Gözləyə-gözləyə abrı, həyanı,
Bir nadan dəlinin gülüşü oldum,
Ah nadan, ah nadan, nə kütbeyinsən.
İşıqlı gündüzə gecə deyirsən.

***

Ürəyim sənsizdi, xəyalım sənsiz,
Cəhənnəm odudur bu halım sənsiz.
Gözəllər gözəli girsə qoynuma,
Qurumuş ağacdı vüsalım sənsiz.

***

Göy gecə köynəyini geydi əyninə,
Ulduz-ulduz düymələdi yaxasın.
Elə ki, oyandı Yer yuxusundan,
Soyundu əynindən gecə çuxasın.

***

Səhər açılınca, o yaltaq günəş,
Tökür ayağıma canda nəyi var.
Girib qılığıma oxşadı məni,
Çəkdi ürəyimdə, qanda nəyim var.

***

Külək göy üzünü süpürdü lay-lay,
Göyü süfrələdi göydə müdrik Ay,
Çağırdı süfrəyə ulduzları da,
Gecə sübhə kimi söhbət etdilər,

Səhər açılınca durub getdilər.
Ay, - böyük ağsaqqal - müəllim idi,
Tələbə ulduzlar dərs aldı ondan;
Məhəbbət eşqinə, həyat naminə,
Yanmağı öyrənin Yerdə insandan.

***

Ulduzlu göylərin ulduzu uzaq,
Kimsəni qızdırmır bu qədər ocaq.
Külək buludları qovur, kürüyür,
Ulduzlar görünmür, gah da görünür,
Kimsə göyə baxıb deyir - yağacaq,
Ulduz görünmür.

***

Əllərim əlinin işıq ucudu,
Əllərim əlinin - işıq acıdı.

***

Ya rəbb,
dərdim ağırdı,
bir gün de ki,
İskəndər də fağırdı,
o da gülsün.
Ya rəbb,
mənə də rəhmin gəlsin.
Bu təmiz,
bu dəniz ürəyi vermisən,
baxtım hanı?
Dedin, - düzələr, səbr elə,
Səbrin yoluna baxdım,
hanı?

***

Gözəl, işıq kimisən,
yetənə aldanırsan,
körpə uşaq kimisən.

***

Ay kimisən,
Bir üzün işıqlı,
Bir üzün qaranlıq.
Bir üzündə sevinc,
Bir üzündə nigaranlıq.

***

Küləklər çobandı, buludlar qoyun,
Bir çoban haylayır bir göy qoyunu.
Gah ildırım çaxır, gah yağış yağır,
Kimdi, nizamlayır bir göy oyunu?

***

Küləklər qaldırıb yarpaq vergülü,
Göylərin fikrinə vergül qoyacaq.
Qorxur ki, vergülü çatmaz, odur ki,
Töküb yarpaqları bir-bir sayacaq.

***

Qaçırtma məni, qaçırtma,
Alçaltma məni, alçatma,
Ay göyərçin, göyərçin,
Qəlbim sənin yuvandı

uçurtma yuvanı, uçurtma.

***

Qarğa səadətlə eşir peyini,
Yaşasa min il də işləmir beyni.

***

Qaranquşlar, sığırçınlar
Gəliblər ki,
qışqırsınlar, çığırsınlar,
yurda bahar çağırsınlar.

***

Bölüb fəsillərə vaxtı, zamanı,
Təbiət işini planlaşdırır.
Bu il qarışdırıb qışı baharla,
Təbiət baharı gümanlaşdırıb.
Aprel yekunlaşır, may gəlir, fəqət,
Hələ də qar yağır, külək oynayır.
Şeytan Tanrıya da yol tapıb nədir,
Fəsillər içində kələk oynayır.

**Milli Məclis Qanun "dəyişir"**
**24 avqust 2004-cü il**

Yumruq başımızda, bənd qolumuzda,
Qorxu cücərdirlər hey qanımızda.
Kimə nə sərf edir, nə sərf etməyir,
Dəyişik edirlər qanunumuzda.

***

Uzanıb çəmənə, söykənib daşa,
Dünyanın kefini çəkir havalı.
Kim ölüb, kim qalıb, deyil vecinə,
Canlı daş kimidi, pozulmur halı.

***

Dünyanın bir əli tutub günəşdən,
Dünyanın bir əli mənə söykənib.
Dahilər neyləsin, bir dəli daşla
Zirvələr sökülüb yerə tökülüb!..

***

Aya baxın, göydə güldü,
Mənə, sənə baxıb güldü.

***

Sözün söz oyunu dindirir məni,
Baxıram halına, güldürür məni.
Doğru söz, itmərəm, gizləsələr də
Dünyada hamıya gördürür məni.

***

Bu elin qaranlığından
Özümü sıyırıb
İşığa atdım.
Qovruldum, yoğruldum işıqla,
İşıq içində boy atdım.
Misra-misra şüalanıb
Ürəklərdə işıq oyatdım.

***

İlhamım,
Gizlənpaç oynayırıq;
Mən yumum gözlərimi,
Sən qaç,
Gizlən və qışqır;
- Gözlərini aç!..

***

Şeirin fəlsəfəsi,
Sözün nəfəsi!
Şeirin hərarəti -
Eşqin həvəsi!
Belə şeiri yaza bilər
Xaqani, Sabir nəvəsi!

***

Yer boyu, göy boyu
Damarlanmazdım damar-damar,
Göydə göyə həyat verən bulud,
Yerdə dağ olmazdım qabar-qabar.
Tanrı bilir;
Mən, mən olmasaydım,
Yer də, göy də qubar idi, qubar!..

***

Bayquşları susdururam,
Dedikləri böhtanları
Özlərinə yedirdib
Qusdururam.

***

Adilik!
Anlaya bilmədim avamlığımdan,
Atamın adilik fəlsəfəsini!
Sözləri yağ kimi axardı dildə,
Kəsməzdi bir kərə söz nəfəsini!

***

Özüm bu dünyanı seçib gəlmişəm,
Anamın qanını içib gəlmişəm,
Araz damarları keçib gəlmişəm,
Mənim bu dünyayla öz hesabım var!

***

Göy üzündə bulud axar,
Sürü-sürü, naxır-naxır.
Göydən yağış, südmü yağır.
Güllər içir fərəhlənir,
Torpaq içir şərəflənir.